# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 040 (6240) 3 mart 2021-ci il **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Paşinyanın istefasını tələb edən jurnalist öldü



İrəvanda Baqramyan prospektində baş vermiş qəzada erməni jurnalist və bir sıra mahnıların müəllifi 35 yaşlı Sosi Xanikyan ölüb. Azvision.az-ın məlumatında deyilir ki, bu barədə erməni KİV-ləri məlumat yayıb. Onu tibb mərkəzinə çatdırsalar da, həyatını xilas etmək mümkün olmayıb. Xanikyan baş nazir Nikol Paşinyanın istefasını tələb...

*Bax 3*

## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb



*Bax 2*

## Hərbi qulluqçuların maaşları artırıldı



Post-müharibə dövrünün bir sıra təhdidlərini, xidmətin xüsusiyyətlərini, qulluq və sosial-məişət şəraitinin mürəkkəbliyini nəzərə alaraq Müdafiə nazirinin müvafiq əmrinə əsasən hərbi qulluqçuların vəzifə maaşlarına müddətli əlavələr müəyyən...

*Bax 5*

## SOROS FONDU: Azərbaycana "QAYIDIŞ" planının gizlinləri



Beləliklə, ilk yazımızda ABŞ-ın yeni prezidenti Co Baydenin administrasiyasının əsas fiquru, dövlət katibi Antoni Blinkenin "Açıq Cəmiyyət İnstitunun" təsisçisi, dünyanın bir sıra ölkələrində, o cümlədən postsovet məkanında dövlət çevrilişləri həyata keçirmiş...

*Bax 7*

## Qlobal GMO terroru: Azərbaycan necə qorunur?



Son zamanlar aktual məsələlərdən biri də ölkəyə biotəhlükəli malların idxalı və istehsalının artmasıdır. Bazar-dükanlar belə məhsullarla...

*Bax 15*

## Erməniləri düşündürən sual: böhrandan çıxış, yoxsa qaranlıq keçmişə qayıdış?

Ermənistanın vətəndaş qarşıdurması, hətta müharibəsi astanasında dayanması faktı artıq reallığa çevrilən mənzərəni açıq şəkildə ortaya qoymaqdadır. O cümlədən, bu gün məğlub ölkənin siyasi çevrələri arasında cərəyan edən hadisələr, xüsusilə iqtidar və müxalifət daxilindəki fikir ayrılıqları daxili savaşın miqyasını daha da artırmaq üzrədir. SİA xəbər verir ki, belə bir...



*Bax 13*

**Yoluxma artdı, karantin rejimi yenidən sərtləşdiriləcək?**



*Bax 10*

**Margin radikalların çirkin niyyətləri...**



*Bax 14*

**"Barselona" Qrizmanna qiymət qoydu: 60 milyon avro!**



*Bax 16*

# Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

**Martın 3-də Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.**

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar. 2020-ci il oktyabrın 30-dək "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2021-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılacaqlar. Nazirlər Kabinetinə bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görmək tapşırılıb.



# Misir nəşri: Müharibə cinayəti törədən Ermənistan minalanmış ərazilərin xəritəsini Azərbaycana vermək istəmir

**Misirin "Əl Masr Əl Yom" nəşrində "Müharibə cinayəti törədən Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana vermək istəmir" sərlövhəli məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında ötən il noyabrın 10-da hərbi əməliyyatların dayanmasına baxmayaraq, Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməməsi səbəbindən hərbçilərin və mülki şəxslərin həlak olması barədə söylədiyi fikirlər yer alıb. Qeyd olunub ki, dövlət başçısı həmin ərazilərin tez bir zamanda minalardan təmizlənməsinin mümkün olmadığını, Azərbaycanın etik standartlara və ümumbəşəri dəyərlərə uyğun olaraq hərbi əsirləri və meyitləri Ermənistana təhvil verdiyini diqqətə çatdırıb.




Məqalənin sonunda ötən il sentyabrın 27-də başlayan və 44 gün ərzində Azərbaycan Ordusunun Qələbəsi ilə başa çatan müharibə, torpaqlarımızın işğaldan azad edilməsi barədə məlumat da yer alıb.

# Valentina Matviyenko: Rusiya Ermənistanın Dağlıq Qarabağla bağlı üçtərəfli Bəyanata əməl etməsinə ümid edir

**Rusiya, İrəvan hadisələrindən asılı olmayaraq, Ermənistanın Dağlıq Qarabağla bağlı üçtərəfli Bəyanata əməl etməsinə ümid edir. AZƏRTAC xəbər verir ki, Federasiya Şurasının sədri Valentina Matviyenko bu barədə RİA Novosti-yə verdiyi müsahibəsində bildirib.**



"Biz Ermənistan liderlərinin məsuliyyətli olduqlarına çox ümid edirik, çox inanırıq - hansı hadisələrin baş verməsindən asılı olmayaraq davamlılıq olmalıdır (Dağlıq Qarabağla bağlı Bəyanatın həyata keçirilməsində - red.) Bu bəyanata zidd olacaq hər hansı bir hərəkət, hər hansı bir addım böyük bir faciəyə səbəb ola bilər, buna yol verməK olmaz", - deyə o bildirib. Spiker, sazişin bağlanmasının Qafqaza sabitlik gətirdiyini xatırladıb.

"Proseslər davam edir, onlar sadə deyil, mürəkkəbdirlər və hər gün bu və ya digər nüanslar yaranır. Lakin əsas odur ki, saziş əldə edildi və indi əldə edilmiş razılaşmalarla tam bir şəkildə uyğun olaraq davam etdirilməsinə çalışmalıyıq", - deyə V.Matviyenko vurğulayıb.

O, Rusiya, Ermənistan və Azərbaycan rəhbərləri tərəfindən imzalanan üçtərəfli sazişin bağlanmasının silahlı qarşıdurmanın inkişafının, insan tələfatının qarşısının alınması baxımından çox əhəmiyyətli bir hadisə olduğunu və Rusiya Prezidentinin böyük şəxsi xidməti olduğunu, onun kompromis tapmaq və razılığa gəlmək bacarığının nəticəsi olduğunu xatırladıb.

"Rusiya sülhməramlılarının Dağlıq Qarabağ münaqişəsi zonasına daxil olması bu bölgədə sabitlik və dinc həyata qayıdış üçün şərait yaratdı. Sülhməramlı qüvvələrimiz mənzillərin və binaların minalardan təmizlənməsi, yenidən qurulması üzrə böyük bir iş görürlər, hər iki tərəfdən qaçqınlara evlərinə təhlükəsiz şəkildə qayıtmasına kömək edirlər və sabitliyin güclü amilidirlər", - deyə Federasiya Şurasının spikeri qeyd edib.

# Rusiyalı ekspert: "Azərbaycan Prezidenti təkcə Cənubi Qafqaz üçün olmayan tamamilə yeni siyasət təklif edir"

Azərbaycan tarixi ədaləti bərpa edərək, 1992-ci ilin kədərli Xocalı səhifəsini çevirə bilib, lakin regionda qarşıdurmanı davam etdirmək niyyətində deyil. AZƏRTAC xəbər verir ki, hərbi icmalçı Aleksandr Artamonov bu fikri Rusiyanın "Pravda.ru" şəbəkə nəşrinin "YouTube" kanalında bildirib.

O, Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici KİV-lərin təmsilçiləri üçün təşkil olunan mətbuat konfransında iştirak edib və dövlət başçısına sual verib.




Jurnalist qeyd edib ki, Prezident İlham Əliyevin sözlərinə görə, Azərbaycan Ermənistan ilə sülh sazişi imzalamağa hazırdır. O həmçinin xatırladıb ki, Azərbaycanın hərbi yolla özünə qaytardığı Qarabağ ərazisi bütün beynəlxalq qanunlara və BMT-nin qətnamələrinə görə Azərbaycana məxsusdur.

A.Artamonov vurğulayıb ki, Azərbaycan Prezidenti Dağlıq Qarabağ öz qanuni sahibinə qaytarılandan sonra sülhün, o cümlədən Ermənistanla normal münasibətlər qurulmasının tərəfdarıdır. Bununla belə, Azərbaycan Prezidenti Xocalıda baş verən faciəni də unutmur, müharibə zamanı dinc şəhərlərin atəşə tutulmasını xatırladır. Ekspert deyir: "Azərbaycan gərəksiz addımlar atmaqdan özünü saxlaya bildi, hərçənd Azərbaycan döyüşçüləri bilir ki, Xocalıda 613 nəfər amansızlıqla, vəhşicəsinə öldürülüb. Mən hadisənin şahidləri ilə söhbət etmişəm, o cümlədən gözləri çıxarılmış, qarınları yırtılmış uşaqların divara mıxlanmış cəsədlərinin təsvir edildiyi fotoşəkilləri və videokadrları görmüşəm. Bütün bunlar olub. Bu, Azərbaycan əhalisinin, hazırda evlərinə qayıtmağı gözləyən 750 min insanın qovulmasına yönəlmiş terror siyasəti idi. Lakin onlar öz evlərinə qayıda bilmir, çünki minalanmış sahələrin xəritəsi Azərbaycan tərəfinə verilmir və ərazi məskunlaşmaya yararlı deyil: infrastruktur yoxdur, orada hərəkət etmək mümkün deyil, deməK olar ki, hər yer minalanıb. Bununla belə, Azərbaycan sülh barədə danışır".

A.Artamonov əmindir ki, Azərbaycan özünün hərbi və siyasi üstünlüyünə baxmayaraq, çoxmillətli dövlət kimi Cənubi Qafqazda dinc yanaşı yaşamağı təklif edir. Jurnalistin fikrincə, bu, təkcə həmin region üçün olmayan tamamilə yeni siyasətdir. Ekspert işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən aparılan bərpa işlərindən də söhbət açıb, "hərçənd Qarabağ ərazisində praktik olaraq bircə salamat ev də qalmayıb".

# İşğaldan azad olunmuş ərazilərimizdə inkişafın yeni təntənəsi

*Prezident İlham Əliyev: "Minalanmış sahələrin xəritələrini verməmək cinayətdir"*

**Ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq dövlətimiz bu istiqamətdə genişmiqyaslı işlər görür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.**

Ancaq bu gün mənfur düşmən terror siyasətini təkcə işğal dövründə deyil, məğlubiyyətdən sonra da davam etdirir. Ermənistan hər yeri, hətta hərbi təyinatı olmayan əraziləri də minalayıb. Əsas məqsədi, əlbəttə ki, mümkün qədər çoxlu sayda mülki şəxslərin həlak olmasını təmin etmək, hər vəchlə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlərə mane olmaqdır.

Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında söügedən məsələyə aydınlıq gətirməklə Ermənistanın cinayətkar əməllərini müharibədən sonra da davam etdirdiyini vurğulayıb: "Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq.



Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib. Minalanmış sahələrin xəritələrini verməmək cinayətdir".

"Bu gün bizdə mövcud olan resurslarla ərazilərin minalardan tezliklə təmizlənməsi mümkün deyil. Yəni, əlbəttə, burada erməni tərəfin qeyri-səmimi davranmasını bir daha yəqin edirik. Onlar sözdə bir cür danışır, əməldə isə başqa cür hərəkət edirlər" -deyən dövlət başçısı onu da vurğulayıb ki, biz özümüzü əxlaq normalarına və ümumbəşəri davranış normalarına müvafiq şəkildə aparırıq: "Lakin minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər? Belə olan təqdirdə birtərəfli əməkdaşlıq ola bilməz".

Ancaq mənfur düşmən bilməlidir ki, yeni texnologiyaların tətbiqi imkan verəcək ki, biz bundan sonra da öz hərbi gücümüzü daim yüksək səviyyədə saxlaya biləк. Dövlət başçımızın dediyi kimi: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır".

Və bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

***RƏFİQƏ HÜSEYNOVA***

# İraqın "əs-Sabah" qəzeti Prezident İlham Əliyevin mətbuat konfransı ilə bağlı məqalə dərc edib

**İraqın rəsmi mətbu orqanı olan "əs-Sabah" qəzeti Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı barədə məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, qəzetin müxbiri işğaldan azad olunmuş torpaqlarımıza, o cümlədən Ağdam şəhərinə səfəri zamanı gördüyü dağıntıların həcmindən dəhşətə gəldiyini qeyd edir.**




Məqalədə müxbir Azərbaycan Prezidentinin fevralın 26-da keçirdiyi mətbuat konfransında iştirak etdiyini bildirib və bu barədə təəssüratlarını çatdırıb. Qəzet Prezident İlham Əliyevin iraqlı jurnalistin sualına cavabından fikirləri təqdim edib.

Prezident İlham Əliyev təkcə Ağdam məscidinin deyil, vaxtilə işğal altında qalan digər ərazilərimizdəki bütün məscidlərin, dini, tarixi və mədəniyyət abidələrimizin dağıntılara, təhqiramiz hallara məruz qaldığını bildirib: "Doğrudan da, Ağdam şəhərinin görüntüləri hamımız üçün çox ağrılıdır və bütün dünya bunu görməlidir. Ağdam məscidində donuz, inək saxlanılması Ermənistan tərəfindən bütün müsəlman aləminə edilən təhqirdir. Biz bunu belə qəbul edirik. Bu təhqiri edənlər bu gün Ermənistan siyasi müstəvisində də özləri üçün yer tapmaq istəyirlər. Ermənistanın keçmiş prezidenti Köçəryanın dağılmış və üzərində təhqiramiz ifadələr olan həmin Ağdam məscidinin önündə fotoşəkilləri var. Onlar bu cinayəti törədiblər və mən dəfələrlə müxtəlif tədbirlərdə, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşlərində və digər beynəlxalq tədbirlərdə qeyd edirdim ki, bu cinayəti törədənlər, İslam müqəddəslərinin təhqirini özünə rəva bilənlər heç vaxt müsəlman ölkələri ilə dost ola bilməzlər".

Dövlət başçısı mətbuat konfransında iştirak edən media nümayəndələrinin nəzərinə çatdırıb ki, Azərbaycan dövləti azad olunmuş torpaqları, oradakı tarixi, dini, mədəniyyət abidələrini, eləcə də bütün məscidləri bərpa edəcək. "İslam ölkələrinin nümayəndələri bu məsələ ilə bağlı öz təkliflərini verirlər. Bu yaxınlarda sizin də qeyd etdiyiniz kimi, ICESCO-nun nümayəndə heyəti Azərbaycanda idi. Onlar Ağdam məscidini ziyarət etmişlər və ondan sonra ICESCO-nun Baş katibi ilə görüş əsnasında belə bir təklif irəli sürüldü ki, ICESCO bizim tarixi abidələrimizin bərpası işində öz rolunu oynaya bilər" , - deyə Prezident iraqlı jurnalistin sualına cavabında bildirib.

Xatırladaq ki, mətbuat konfransında Azərbaycan Prezidenti dünyanın 35 media qurumunun nümayəndələrinin 50-dək sualını cavablandırdı, İkinci Qarabağ müharibəsinin başlanma səbəblərini, Rusiya sülhməramlılarının, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətini, azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini, Azərbaycanın qonşu dövlətlərlə münasibətlərini və digər məsələləri geniş şərh edib.

## Əfv komissiyası dünən 100-dən artıq müraciətə baxıb

Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib. İclasda əfvlə bağlı 100-dən artıq müraciətə baxılıb.



Qeyd edək ki, indiyədək komissiyanın 4 iclası keçirilib və daxil olan müraciətlərin 450-dən çoxuna baxılıb. İclaslarda əsasən yol nəqliyyat hadisəsi törətmiş şəxslərin, əcnəbilərin və hərbi qulluqçuların müraciətlərinə baxılıb.

## Paşinyanın istefasını tələb edən jurnalist öldü

İrəvanda Baqramyan prospektində baş vermiş qəzada erməni jurnalist və bir sıra mahnıların müəllifi 35 yaşlı Sosi Xanikyan ölüb. Azvision.az-ın məlumatında deyilir ki, bu barədə erməni KİV-ləri məlumat yayıb. Onu tibb mərkəzinə çatdırsalar da, həyatını xilas etmək mümkün olmayıb. Xanikyan baş nazir Nikol Paşinyanın istefasını tələb edənlər sırasında idi. Dünən o, müxalifətin etiraz aksiyasında iştirak edib və evə qayıdarkən qəzada ölüb.



Uzun illər İctimai TV-də redaktor və ssenarist kimi çalışıb, bir sıra mahnıların sözlərinin, o cümlədən erməni müğənni Sevak Xanaqyanın səsləndirdiyi "Artsax" mahnısının müəllifidir. Qarabağ müharibəsi günlərində və müxalifətin mitinqlərində bu mahnı tez-tez səsləndirilirdi. Hadisə ilə bağlı cinayət işi açılıb. Qəzanın səbəbləri araşdırılır.

# Prezident İlham Əliyevin mətbuat konfransında səsləndirdiyi fikirlər İtaliya mediasının da diqqət mərkəzində olub

**İtaliyanın "Il Giornale", "Messenger News", "Focus News 24", "Kmetro", "Metroct", "Politicamente Corretto", "EurasiaNews", "Globus Magazine", "Agenzia Nova" kimi mətbu orqanları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 26-da keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlərə dair məlumatlar dərc edib. Məlumatlarda çoxsaylı yerli və xarici media nümayəndələrinin iştirak etdikləri mətbuat konfransının 4 saatdan artıq davam etdiyi və Prezident İlham Əliyevin 50-yə yaxın sualı cavablandırdığı vurğulanıb.**







Məlumatlarda Prezident İlham Əliyevin açılış nitqində 1992-ci il 26 fevral tarixində Ermənistan silahlı qüvvələri tərəfindən 613 mülki azərbaycanlının qətlə yetirildiyi Xocalı faciəsindən bəhs etdiyi bildirilib.

Yazılarda jurnalistlərin suallarını cavablandıran dövlət başçısının Vətən müharibəsinin nəticələrinə dair məlumat verdiyi, bunun otuz illik səmərəsiz danışıqlardan daha effektli olduğunu bildirdiyi qeyd olunub. Prezident İlham Əliyevin bu sözlərinə yer verilib: "Biz öz sərhədimizdə dayanmışıq və erməni əhalisinə qarşı hər hansı bir zərərli addımlar atmırıq. Biz orada "Azərbaycana xoş gəlmisiniz" lövhəsi asmışıq və mən anlamıram, bu, nəyə görə Ermənistanda hər hansı bir qıcıq doğurur. Biz yanlış heç nə yazmamışıq".







Həmçinin dövlətimizin başçısının fikirlərinə istinadən bildirilib ki, Azərbaycan mümkün olmayanı 44 gün ərzində reallığa çevirib, Xocalı qurbanlarının intiqamını döyüş meydanında alıb: "Biz Xocalıya da qayıdacağıq. Biz özümüzə məxsus olanı qaytarmışıq və nümayiş etdirmişik ki, bizim sözümüz və əməlimiz eyni dəyərə malikdir".




Məlumatlarda, həmçinin ölkə başçısının Ermənistanın üçtərəfli Bəyanatın icrasını pozmağa cəhd göstərəcəyi halda bunun onun üçün sui-qəsd olacağını, hər hansı revanş cəhdlərinin Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacağını bildirdiyi qeyd edilib. Prezident İlham Əliyevin Ermənistanda baş verən böhrana münasibətdə bu tragikomediyaya son qoyulmalı olduğunu bildirdiyi vurğulanıb. "Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir... Müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq...Biz yeni reallıq yaratdıq və indi hər kəs bu reallıqla barışmalıdır, hesablaşmalıdır", - deyə ölkə başçısının fikirlərinə istinad olunub.




Əcnəbi əsgərlərə münasibətdə Prezident İlham Əliyev onların Azərbaycan ərazisində fəaliyyət göstərməsinin müvəqqəti xarakter daşıdığını, onların xüsusi missiya icra etdiklərini, bunun hərbi baza anlamına gəlmədiyini, beş ildən sonra Azərbaycanın bu məsələ ilə bağlı fərqli fikir sərgiləyəcəyi halda onların fəaliyyətinə son veriləcəyini, onların bu gün Azərbaycan ərazisində olması, eyni zamanda, azad edilmiş torpaqlara Azərbaycan əhalisinin qayıtması üçün də müsbət rol oynayacağını, Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsinin müzakirə mövzusu olmadığını, işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyinin təmin edildiyini, müntəzəm reydlər keçirildiyini, buna görə vəziyyətin tam nəzarət altında olduğunu bildirdiyi qeyd olunub.




Məlumatlarda, həmçinin Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlamasına dair Prezident İlham Əliyevin fikirlərinə yer verilib.

Mətbuat konfransında, habelə Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin qovulduğu ərazilərə qayıtmasının qrafiki məsələsinə də toxunduğu, onların qayıtmasından öncə ərazilərin minalardan təmizlənməli olduğunu, ziyanın qiymətləndirilməsinin tamamlanmalı, infrastrukturun bərpa edilməli, şəhər və kənd planlamasının başa çatdırılmalı olduğunu bildirdiyi qeyd edilib. Habelə Prezidentin sözlərinə istinadən vurğulanıb ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və Füzuli Beynəlxalq Hava Limanının bu payız istifadəyə verilməsi planlaşdırılıb. Hazırda həmin hava limanı ilə yanaşı, Şuşa şəhərinə də iki magistral yolun tikildiyi, Laçın və Zəngilan hava limanları da inşa ediləcəyi, Zəngilanın əhəmiyyətli bir logistik mərkəzə çevriləcəyi vurğulanıb.

Prezident İlham Əliyevin davamlı sülh və təhlükəsizliyin 10 noyabr Bəyanatına sadiq qalmaqla, revanşizmdən çəkinmək və əməkdaşlığa üstünlük verməklə təmin ediləbiləcəyini, məqsədin üçtərəfli əsasda əlaqəni bərpa etmək və Zəngəzur dəhlizini yaratmaq olduğunu, bunun reallığa çevriləcəyi halda Ermənistanın da sülhdən faydalanacağını bildirdiyi qeyd olunub.

Yazılarda ölkə başçısının erməni tərəfinin minalanmış sahələrin xəritələrini təqdim etməməsini cinayət kimi qiymətləndirdiyi, bu səbəbdən müharibə bitdikdən sonra həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında həlak olanların olduğunu, minalanmış sahələrin xəritələrini ölkəmizə verməməyin dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək demək olduğunu bildirdiyi diqqətə çatdırılıb.

# Əli Hüseynli: "Azərbaycan dövləti işğal dövründə vurulmuş ziyana görə təzminat almaqda israrlıdır"



**Azərbaycan dövləti işğal dövründə vurulmuş ziyana görə təzminat almaqda israrlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında 4 saatdan artıq müddətdə canlı yayımla dünyanın 35 ölkəsini təmsil edən 50-dən çox jurnalistin suallarını fasiləsiz cavablandırdı.**

Məhz Xocalı faciəsi qurbanlarının anım günündə soyqırımı həqiqətlərinin dövlətimizin başçısı tərəfindən dünya ictimaiyyətinin diqqətinə çatdırılması, erməni faşizminin təkzibolunmaz faktlarla ifşasının nüfuzlu KİV-lərin manşet xəbərlərində tirajlanması informasiya cəbhəsində növbəti böyük uğur olaraq, ilk növbədə, beynəlxalq ictimaiyyətin Azərbaycana artan diqqətindən xəbər verir. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Əli Hüseynli deyib.

Deputat bildirib ki, media nümayəndələrinin Ermənistanın 30 il ərzində işğal altında saxladığı ərazilərdə Azərbaycana vurduğu ziyan və bu cinayətə görə cəza perspektivləri barədə sualları xüsusi maraq doğurur.

Bildiyiniz kimi, erməni varvarları zəbt etdikləri Qarabağ torpaqlarını viran qoyub, bütün infrastrukturu məhv edib, evləri, binaları talayaraq yerlə-yeksan etmiş, xalqımızın tarixi, mədəni və mənəvi irsinə ağır zərbə vurublar. 100 min hektar kənd təsərrüfatı təyinatlı münbit torpaqlar, 54 min hektar ərazidə meşə fondu məhv edilib, bölgə ekoloji fəlakət həddinə çatdırılıb. Bu vandallıq hətta 10 noyabr üçtərəfli Bəyanatın qəbul olunmasından sonra da davam etmişdir. Vurulmuş ziyanın həcmi 100 milyardlarla ölçülür.

Görünən odur ki, başı daxili çəkişmələrə qarışmış məğlub Ermənistan hakimiyyəti bu hərbi cinayətlərin dairəsini hələlik tam təsəvvür edə bilmir. Amma bütün əvvəlki oxşar hərbi cinayətlərin araşdırılması göstərir ki, söhbət böyük məbləğdə təzminat tələbindən gedir. Artıq dünyanın aparıcı media qurumları da Ermənistan tərəfindən barbarcasına dağıdılan şəhərlərimizi Xirosima ilə müqayisə edirlər, onları "ruhlar şəhəri" adlandırırlar. Bu, məhz hərbi cinayətin miqyasını göstərən müqayisələrdəndir. Mətbuat konfransının gedişində Prezident İlham Əliyev bu məsələyə münasibətini açıqlayaraq söylədi: "Bütün dünya bunu gördü. İkinci Qarabağ müharibəsinin əhəmiyyəti təkcə ərazilərimizin, ərazi bütövlüyümüzün bərpası ilə məhdudlaşmır. Bütün dünya erməni faşizminin əsl real sifətini gördü. Biz, əlbəttə ki, bütün dəymiş ziyanı hesablamalıyıq və hesablayırıq. Mənim göstərişimlə indi Azərbaycanın müvafiq qurumları video, foto çəkilişlər aparırlar, dron çəkilişləri aparılır. Dəymiş bütün ziyan hesablanacaq. Dağılmış bütün evlərin protokollaşdırılması işlərinə start verilib ki, vətəndaşlar fərdi qaydada dəymiş ziyanın ödənilməsi üçün beynəlxalq məhkəmələrə, ilk növbədə, Azərbaycan məhkəmələrinə və sonra beynəlxalq məhkəmələrə müraciət etsinlər".

Eyni zamanda, həmin ərazilərdə iqtisadi aktivliyin dayanması ciddi ziyan kimi hesablanmalıdır. Bu baxımdan, Ermənistanın işğal altındakı ərazilərimizə vurduğu ziyan, sadəcə, onun birbaşa etdiyi dağıntılar ilə məhdudlaşmayacaq. Həmin ərazilərimizin böyük iqtisadi potensialını nəzərə aldıqda Ümumi Daxili Məhsula dəyən ziyanın da ayrıca hesablanması və təzminat məbləğinə daxil edilməsinə ehtiyac yaranır. Artıq bununla bağlı Dünya Bankı, BMT kimi beynəlxalq institutların aydın metodologiyası var.

Deputat bildirib ki, Azərbaycan Prezidentinin dediyi kimi, bununla bağlı işlər bir neçə istiqamətdə və mərhələdə reallaşacaq: "İkinci mərhələdə, - artıq bu sahədə də işlər başlanıb, müvafiq sənədlər imzalanıb, - buna oxşar münaqişələrdə dəymiş ziyanın hesablanması üçün təcrübəsi olan beynəlxalq şirkətlərlə də sənədlər imzalanıb, onlar yaxın gələcəkdə Azərbaycana gələcəklər. Əlbəttə ki, onlar özləri tədqiqatlar aparacaqlar, ancaq biz də onları lazım olan materiallarla təmin edəcəyik. Bu beynəlxalq şirkətlərin bu sahədə təcrübəsi var və dəymiş ziyanın ödənilməsi, təzminatın ödənilməsi üçün əlbəttə ki, beynəlxalq məhkəmələrdə iddialar qaldırılacaq".

Təbii resurslarımızı icazəsiz istismar edən xarici şirkətlərin də məsuliyyətə cəlb edilməsi gündəlikdədir. Bu, beynəlxalq cinayətdir. Prezident İlham Əliyev açıqladı ki, artıq bu cinayəti törətmiş bəzi qurumların məsuliyyətə cəlb edilməsi üçün ilkin hazırlıq işləri aparılıb: "Mən bu məsələ ilə bağlı bir-iki dəfə öz sözümü demişəm, bir daha demək istəyirəm ki, ya bu şirkətlər bizə təzminat ödəyəcəklər, kompensasiya verəcəklər, ya da ki, məhkəməyə gedəcəklər. Məhkəməyə getdikləri təqdirdə, tam əminəm ki, məhkəmədə onlar uduzacaqlar, eyni zamanda, dünya miqyasında biabır olacaqlar. Çünki başqa ölkədə qanunsuz işlərlə məşğul olmaq, qanunsuz sahibkarlıqla məşğul olmaq, o ölkənin təbii sərvətlərini talamaq cinayət sayılır. Bu şirkətlərin beynəlxalq reputasiyasına da çox ciddi ziyan dəyəcək".

Bu cinayət əməllərinin mühakiməsi ilə bağlı perspektivlərə gəldikdə, ölkə rəhbəri dünya ictimaiyyətinə və beynəlxalq hüquq institutlarına çağırış edərək, onları bu məsələdə ədalətli və obyektiv olmağa dəvət etdi: "İndi beynəlxalq məhkəmələrdə buna nə dərəcədə reaksiya veriləcək? O, işin ikinci məsələsidir. Burada, əlbəttə ki, əsas məsələ obyektivlikdir. Əgər obyektiv yanaşma olsa, əlbəttə ki, onlar bu təzminatı ödəməli olacaqlar. Biz, eyni zamanda, beynəlxalq praktikaya da nəzər saldıq. Xarici İşlər Nazirliyinə tapşırıq verildi və artıq bu günlərdə mənə məlumat verildi, presedentlər necə olub, bu presedentlər var. O qədər də çox deyil, amma var. Burada, əlbəttə, hər bir presedent bizim tərəfimizdən təhlil edilməlidir ki, bunun təməlində nələr dayanır? Obyektivlik, yoxsa ki, siyasi sifariş? Çünki sirr deyil ki, beynəlxalq məhkəmə sistemi də siyasi təzyiqdən azad deyil və bəzi hallarda siyasi sifarişlər də yerinə yetirilir. Ona görə hər şey bundan asılı olacaq. Hər halda, biz öz üzərimizə düşən missiyanı yerinə yetiririk və yaxın zamanlarda dolğun hesabat hazırlanacaqdır".

Prezident İlham Əliyevin hələ ötən il noyabrın 6-da imzaladığı "Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncama uyğun olaraq Dövlət Komissiyası və müxtəlif regionlar üzrə yaradılmış 9 işçi qrupu bu istiqamətdə fəaliyyətini davam etdirir.

Digər tərəfdən, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini tək o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir. Azərbaycan Respublikası müstəqil dövlət olaraq bir sıra beynəlxalq müqavilələrə, o cümlədən müvafiq beynəlxalq konvensiyalara qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırmışdır. 1998-ci il aprelin 10-da "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilib. Bu qanun tarix və mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir. Beləliklə, həm milli qanunvericilik səviyyəsində, həm də beynəlxalq hüquq normaları baxımından yetərincə imkanların mövcudluğu təzminatla bağlı məsələlərin həlli prosesində Azərbaycan tərəfinin nikbinliyi artıran ən vacib amildir.

# Hərbi qulluqçuların maaşları artırıldı



Post-müharibə dövrünün bir sıra təhdidlərini, xidmətin xüsusiyyətlərini, qulluq və sosial-məişət şəraitinin mürəkkəbliyini nəzərə alaraq Müdafiə nazirinin müvafiq əmrinə əsasən hərbi qulluqçuların vəzifə maaşlarına müddətli əlavələr müəyyən edilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya bildirilib ki, əmrə əsasən, Azərbaycan Ordusunun Ermənistanla dövlət sərhədində və Azərbaycanın Qarabağ bölgəsində Rusiya Federasiyası sülhməramlı kontingentinin yerləşdirildiyi zonaya bitişik ərazilərdə hərbi xidmət keçən hərbi qulluqçuların vəzifə maaşlarına 100 faiz həcmində müddətli əlavələr təyin edilib: "İşğaldan azad edilmiş və hazırda infrastruktur qurulmayan ərazilərdə hərbi xidmət keçən hərbçilərin vəzifə maaşlarına isə 50 faiz həcmində müddətli əlavələr təyin olunub. Qeyd edək ki, əmr cari ilin yanvar və fevral ayları üçün ödəniləcək pul təminatına da şamil edilir".

# Solovyov Paşinyanı ələ saldı



Tanınmış rusiyalı teleaparıcı Vladimir Solovyov Ermənistan rəhbərliyini lağa qoyub. "İki sahil" xəbər verir ki, o, baş nazir Nikol Paşinyanın "İsgəndər" raketi ətrafında yaratdığı qalmaqala və bundan sonra ölkədə yaşananlara münasibət bildirib. Solovyov Paşinyana söz ataraq deyib: "Mən hələ belə bir şey görməmişdim ki, "İsgəndər" raketindən istifadə edilməsi nəticəsində ölkələrdən birinin baş naziri xəsarət alsın. Hətta onun üzr istəməsi belə baş nazirə kömək etmir".

# Paşinyan özünə yeni zirehli avtomobil alıb?



Ermənistanın baş nazir Nikol Paşinyan üçün yeni zirehli avtomobil alınıb. Bu barədə erməni KİV-ləri məlumat yayıb. Paşinyanın yeni avtomobilinin 320 min dollar dəyərində olduğu bildirilir.

"Nikol Paşinyan ailəsinin rahatlığını dövlət büdcəsi hesabına təmin edir. O, bir neçə dəfə israfçılığa yol verməkdə maraqlı olduğunu göstərib. Hazırda da dövlət büdcəsini ailə büdcəsi kimi qiymətləndirirlər. Sadə ermənilərin alın təri ilə qazandıqları pullardan formalaşan büdcəmizdən milyonlar ayıraraq sağa-sola xərcləyəcəklərini göstərirlər. Məsələn, 2019-cu ildə Nikol Paşinyanın hər birinin dəyəri 540 min dollardan çox olan iki zirehli maşın aldığını aşkar etmişdik. İndi isə, yeni müharibədən sonra bu ağır iqtisadi durumda baş nazir özünə yeni bir zirehli avtomobil alıb. Yeni avtomobilin qiyməti 320 min dollardır", - deyə məlumatda qeyd olunub.

Ermənilər bunu Paşinyanın təhlükəsizliyinin təminatında yaranan boşluqlardan qorxması ilə əlaqələndirsələr də, əvvəlki zirehli avtomobillərin hara yoxa çıxmasını sual edirlər.

# Azad edilən ərazilərin torpaq sahələrinin inventarlaşdırılması yekunlaşıb



"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə İşçi Qrupun növbəti iclası keçirilib. "İki sahil"in məlumatına görə, azad edilmiş torpaqlarda iqtisadi fəaliyyətin təşkili işlərinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu İqtisadi məsələlər üzrə İşçi Qrup əmlakın inventarlaşdırılması, işğaldan əvvəl mövcud olan xəritələrin vektorlaşdırılması, habelə iqtisadi fəallığın dəstəklənməsi kimi proseslər üzərində işləyir.

Aidiyyəti qurumlar tərəfindən Qrupun sahəvi tədbirlər planının icrasına başlanılmışdır. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bir çox əmlakın çöl inventarlaşdırma işləri tamamlanıb, bir necə infrastruktur, nəqliyyat və təchizat, eləcə də torpaq sahələrinin inventarlaşdırılması başa çatdırılıb. Veb əsaslı, mətn və qrafiki komponentlərdən ibarət Qarabağ İnventar Proqramı hazırlanıb və dövr ərzində təkmilləşdirilib. Hazırda müvafiq dövlət qurum və təşkilatları ilə texniki inteqrasiya mühiti qurulur.

İşğaldan əvvəl mövcud vəziyyətə dair xəritə materiallarının vektorlaşdırılması, bu sahədə zəruri işlərin davam etdirilməsi məqsədilə kənd yaşayış məntəqələrinin kağız xəritələrin koordinat sisteminə gətirilməsi üçün işlər aparılır.

Bu ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müraciətlərin qəbulu, təhlili, sahibkarların məlumatlandırılması, müvafiq tövsiyələrin verilməsi və müraciətlərin aidiyyəti olaraq yönləndirilməsi işləri İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən təmin edilir.

Artıq investisiya layihələri ilə bağlı 400-dən artıq müraciət daxil olmuşdur. İnvestisiya layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir. Yeni təşviq alətlərinin formalaşdırılması, o cümlədən sənaye parkları, sənaye məhəllələri, aqroparkların yaradılması ilə bağlı təkliflər hazırlanır. Sahəvi Tədbirlər Planına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin turizm potensialının qiymətləndirilməsi, bölgənin regional turizm strategiyasının formalaşdırılması, turizm marşrutlarının hazırlanması istiqamətində Dövlət Turizm Agentliyi tərəfindən müvafiq işlər görülür. Qrup fəaliyyətini İdarələrarası Mərkəzin digər İşçi Qrupları ilə sıx əlaqə və məlumat mübadiləsi formatında həyata keçirməkdədir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Qadınlar günü niyə qeyd olunur?

**Beynəlxalq Qadınlar Günü və ya Dünya İşçi Qadınlar Günü hər il 8 martda qeyd olunur. Və bu tarix Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmış beynəlxalq statuslu bir gündür. 8 mart həm də insan hüquqları nöqteyi-nəzərindən qadınların siyasi və sosial şüurun inkisafına, iqtisadi, siyasi və sosial sahələrdə uğurlarının qeyd olunduğu gündür.**

8 Mart 1857-ildə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Nyu-York şəhərində 40.000 toxucu qadın daha yaxşı iş şəraiti tələbi ilə toxuculuq fabrikində tətilə başlayıb. Polislər tətil edən işçilərə hücum edərək bütün qadınları fabrikə toplayıb və onların sexlərdən kənara çıxmasına qadağa qoyub. Lakin bəlli olmayan səbəblərdən fabrikdə yanğın baş verib. Faciədə 129 işçi həlak olub. Yanğında ölən işçilərin cənazə mərasimində 10.000 insan iştirak edib.

26-27 avqust 1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində keçirilən II Beynəlxalq Qadınlar konfransında (Beynəlxalq Sosialist Qadınlar konfransı) Almaniya Sosial-Demokrat Partiyasının liderlərindən olan Klara Çetkin 8 mart 1857-ci ildə toxuculuq fabrikində həlak olan qadın işçilərin şərəfinə 8 Mart tarixini "Dünya Qadınlar Günü" olaraq qeyd edilməsi təklifini irəli sürüb və çoxluğun qərarı ilə qəbul edilib. 1921-ci ildə Moskvada keçirilən III Beynəlxalq Qadınlar Konfransında 8 Mart Dünya İşçi Qadınlar Günü olaraq qəbul edilib.

Birinci və İkinci Dünya Müharibəsi illərində 8 Mart gününün qeyd edilməsi bəzi ölkələrdə qadağan edilsə də, 1960-cı ildə ABŞ-da yenidən daha geniş şəkildə qeyd edildi. 1975-ci ildə BMT-nin qərarı ilə 8 martını ilk dəfə Beynəlxalq Qadınlar Günü olaraq keçirildi. İki il sonra 1977-ci ildə isə nəhayət Birləşmiş Millətlər Təşkilatının sessiyasında 8 mart qadın hüquqları və beynəlxalq sülh günü olaraq qəbul edildi.

Beynəlxalq Qadınlar Günü eyni zamanda qadın hüquqlarının genişləndirilməsinin və bugünkü qadının daha azad olmasının tarixi səbəblərinin xatırlanması üçün də xüsusi gündür. Bütün bunları nəzərə alaraq demək olar ki, 8 mart sadəcə, qadınlar günü yox, qadın-inqilabçılar günüdür.

Qərbdə Beynəlxalq Qadınlar Günü ilk dəfə məşhur bir hadisə kimi 1977-ci ildən sonra, Birləşmiş Millətlərin Baş Assambleyası üzv ölkələri 8 martın BMT-nin dünya sülhü və qadın azadlıqları Günü kimi qəbul olunmasına dəvət etdikdən sonra müşahidə olunmuşdur. 8 Mart Sovet hakimiyyəti illərindən qalma bayram olsa da, Azərbaycanda indiyədək qeyd edilir. Məhz qadınların kütləvi şəkildə savadlanması, müəyyən hüquqlara malik olması həmin dövrə təsadüf edir. Bəlkə də buna görədir ki, 8 Mart digər sosializm mənşəli bayramlardan fərqli olaraq, artıq müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bu günə qədər silinməyib.

Azərbaycan qadınına ən yüksək qiyməti Ulu öndər Heydər Əliyev verib. Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkili məsələsi Ulu öndərimiz Heydər Əliyev tərəfindən hər zaman diqqət mərkəzində saxlanılıb. Qadınlarımız təkcə ailədə uşaq böyütmür eyni zamanda ölkənin siyasi, sosial, mədəni həyatında, bütün sahələrdə uğurla fəaliyyət göstərirlər. Bu gün Azərbaycan qadını öz hüquqlarını müdafiə etməyə qabil olan, dövlət quruculuğu prosesində fəal iştirak edən bir qüvvədir. Ümummilli liderimiz Azərbaycan qadınlarının rolunu yüksək qiymətləndirərək demişdir: "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin dayağıdır".




Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gender sahəsində dövlətimizin strateji kursu qadınların sosial həyatın bütün sahələrinə fəal cəlb olunmasını nəzərdə tutur. Dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev bu istiqamətdə ölkədə ötən dövr ərzində xeyli iş görüb və hazırda da görməkdədir. Dünya standartlarına uyğun mükəmməl gender qanunvericiliyi bazası yaradılmışdır. Ulu öndərin yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlətin qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin etdi. Onun rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atdı.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır.

Bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasəti nəticəsində dövlətimizin dayaqları möhkəmlənir, Azərbaycan daha da çiçəklənib, qüdrətli bir ölkəyə çevrilib.

8 mart Azərbaycan təqviminin ən fərəhli günlərindən biridir. Çünki bu bayram Azərbaycan anasının, tarixən ağlı, zəkası, gözəlliyi, namusu, sədaqəti, fədakarlığı ilə millətinə, torpağına başucalığı gətirən Azərbaycan qadınının bayramıdır.

Azərbaycan qadının öz əzəli funksiyası olan analıq vəzifəsini və borcunu da şərəflə yerinə yetirir, Vətən üçün milli-mənəvi dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edib yetişdirirlər.

Anadan danışarkən, analığın ən gözəl nümunəsi vətənpərvər ruhda igid oğullar yetişdirən analardan danışmasaq olmazdı. Qarabağ müharibəsində övladları şəhid olmuş anaların günüdür bu gün. Acı ilə bərabər qürur hissi yaşayan anaların. Bu günü bayram kimi yaşamağa bizim mənəvi haqqımız varmı, bilmirəm, amma onu bilirəm ki, nəinki bu gün hər gün o anaların günüdür. Övladını itirən gündən həyatı dayanan anaların. Hansı ki, 44 günlük müharibədə oğullarını Qarabağımızı geri qaytarmaq üçün yola saldılar. Bunlar Azərbaycan anasının nə qədər müqəddəs olduğunun göstəricisidir. Xüsusilə şəhid analarını təbrik edirəm ki, övladlarına vətən yolunda canını verməyi öyrətdilər və Azərbaycan bayrağı verilən zaman "Vətən sağ olsun!" deyərək qəbul elədilər. Bu bayram günündə qeyd etmək xüsusilə xoşdur ki, həmişə olduğu kimi, indi də qadınlar cəmiyyətimizdə hörmət və izzət sahibidirlər, onlara dövlətimiz tərəfindən böyük diqqət və qayğı vardır.

***Qönçə Quliyeva,***
***BDU-nun Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi***

## Nazir: Yanvar-fevral aylarında vergi daxilolmaları 118,7 faiz icra olunub

**Yanvar-fevral aylarında vergi daxilolmaları 118,7 faiz icra edilib. AZƏRTAC xəbər verir ki, bu sözləri iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.**




"Biznes pandemiyadan sonrakı bərpa dövrünə daxil olur. İlin iki ayının yekunları ürəkaçandır. İlkin məlumata əsasən, vergi daxilolmaları proqnozlara nisbətən 118,7 faiz icra olunub. Qeyri-neft-qaz sektorundan əlavə daxilolmalar 84,7 milyon manat təşkil edib", - deyə nazir bildirib.



## Abbas Müsəvi: Azərbaycan ilə əlaqələrin inkişafı İran üçün prioritet siyasi xətt təşkil edir

İran 15 ölkə ilə qonşu və həmsərhəddir. Lakin bu ölkələrin arasında Azərbaycanın İran üçün xüsusi yeri var. Bu sözləri İranın Azərbaycandakı səfiri seyid Abbas Müsəvi Qum şəhərində keçirilən beynəlxalq Qarabağ konfransında deyib.

O bildirib ki, Azərbaycanın Qarabağı işğaldan azad etməsi regionda yeni reallıqların yaranmasına səbəb olub. Bu reallıqlar ondan ibarətdir ki, azad olunan rayonlar İranla sərhəddə yerləşir. Bu rayonların bərpasından sonra iki qonşu və dost ölkə arasında iqtisadi əlaqələrin genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlıq üçün böyük imkan yaranıb.

İran şirkətləri Qarabağın bərpasında iştirak etmək istəyirlər. Bərpa olunacaq rayonların İranla sərhəddə yerləşməsi tikinti materiallarının, digər ləvazimatların tez çatdırılmasına imkan verəcək və nəqliyyat xərci də çox az olacaq.

Səfir nəzərə çatdırıb ki, İranın Müdafiə Nazirliyi işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi işində iştirak edə bilər. İranın bu sahədə böyük təcrübəsi var.

Diplomat qeyd edib ki, İran ilə Azərbaycan Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" su anbarlarının tikintisinin davam etdirilməsi haqqında razılığa gəliblər. Bu anbarlar hər iki tərəf üçün faydalıdır. İşğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatının su problemi həll olunur. Eyni zamanda, Astaraçay üzərində yeni körpünün inşası barədə də razılıq var. Bu körpü İran ilə Azərbaycanın birgə iştirak etdiyi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında böyük rol oynayacaq.

## Ermənistanda Baş Qərargah rəisi işdən qovulur



Ermənistanın Baş Qərargah rəisi ölkə prezidentinin təsdiqi olmadan vəzifəsindən azad ediləcək. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ermənistan prezidenti Armen Sarkissyanın mətbuat xidməti bildirib. Ermənistan prezidenti Armen Sarkissyanın mətbuat xidməti bildirib ki, Baş Qərargah rəisi Onik Qasparyanın vəzifəsindən azad edilməsi barədə fərman layihəsini imzalamayacaq və konstitusiyaya görə fərman avtomatik olaraq qüvvəyə minəcək.

Qeyd olunur ki, əsas qanuna görə, prezident üç gün müddətində müvafiq əmri, etirazları baş komandan heyətinin nümayəndəsinin işdən çıxarılması üçün müraciət etmiş baş nazirə qaytara bilər. Hökumət başçısı bu etirazları qəbul etmirsə, prezident müvafiq sənədi imzalamalı və ya Konstitusiya Məhkəməsinə müraciət etməlidir. Prezident bu tələbləri yerinə yetirmirsə, müvafiq akt avtomatik olaraq qüvvəyə minir.

Xatırladılır ki, "Respublika Prezidenti fərman layihəsini imzalamamağa qərar verdi", deyə prezidentin saytındakı açıqlamada bildirilir. Eyni zamanda, Sarkisyanın Konstitusiya Məhkəməsində fərman layihəsinin özünə deyil, Silahlı Qüvvələrdə kadr məsələləri ni tənzimləyən "Hərbi xidmət və hərbi qulluqçuların statusu haqqında" qanunun müddəalarına etiraz etdiyi qeyd olunur.

# SOROS FONDU: Azərbaycana "QAYIDIŞ" planının gizlinləri

## Bu dəfə USAİD, "Şərq-Qərb İdarəetmə İnstitutu" və Delina Fico haqqında...

*Yazının əvvəlini 27 fevral buraxılışında oxuya bilərsiniz*

Beləliklə, ilk yazımızda ABŞ-ın yeni prezidenti Co Baydenin administrasiyasının əsas fiquru, dövlət katibi Antoni Blinkenin "Açıq Cəmiyyət İnstitunun" təsisçisi, dünyanın bir sıra ölkələrində, o cümlədən postsovet məkanında dövlət çevrilişləri həyata keçirmiş milyarder Corc Sorosun şəbəkəsində yer alması, o cümlədən həmin şəbəkənin fəaliyyətində digər şəxslərin iştirakı haqqında qeydlərimizi etmişdik. O cümlədən, Soros Fondu şəbəkəsinə daxil olan müxtəlif təşkilatların ölkələrdəki fəaliyyətlərinin bu və ya digər şəkildəki maraqlarını icra etmək cəhdləri ətrafında da bir sıra faktlar ortaya çıxıb. Ancaq apardığımız araşdırma zamanı o da bəlli olub ki, sorosçuların Azərbaycandakı fəaliyyətlərinə rəsmi qaydada qadağa qoyulsa da, onlar müxtəlif vasitələrlə, hətta qeydiyyatdan keçməyərək öz təsir imkanlarını qüvvədə saxlamağa cəhdlər göstərirlər.



### Azərbaycan hökuməti layihəni daimi nəzarətdə saxlamaq üçün layihənin icraçısı olan ŞQİİ-ni qeydiyyata almaqdan imtina edir - Delino Ficonun layihə adı altında, əslində, Azərbaycanla bağlı gizli planları aldığı təlimatları demək olar ki, iflasa uğrayır

Nəticədə araşdırmamızı davam etdirərkən, növbəti maraqlı faktlarla rastlaşdıq. Məlum olmuşdur ki, Corc Soros özünə dolayısı ilə məxsus bir neçə təşkilatla ölkəmizə daxil olmağa əvvəllər də cəhd edib. Belə ki, əvvəlki məqaləmizdə qeyd olunan və 1988 -ci ildə Soros tərəfindən təsis olunan "Şərq-Qərb İdarəetmə İnstitutu" (ŞQİİ) adlı təşkilat hələ 2004-2006-cı illərdə digər qalmaqallı təşkilat kimi tanınan "Beynəlxalq Xilasetmə Komitəsi" adlı bir qurum vasitəsi ilə ölkəmizdə qısa müddətli layihə icra etməklə burdakı vəziyyəti təhlil etmiş və növbəti illərdə yeni layihələrlə gəlmək planları hazırlamışdır. Belə ki, təşkilat 7 aprel 2009-cu ildə Azərbaycanla ABŞ hökumətləri arasında "Amerika Birləşmiş Ştatları Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında "Azərbaycanda Seçilmiş Amerika Hökuməti Yardım Proqramlarının Birgə Maliyyələşdirilməsi üzrə Anlaşma Memorandum"u imzalandıqdan sonra fəallaşır.

Sözügedən saziş çərçivəsində ölkələr ümumi məbləği 45 milyon ABŞ dolları həcmində vəsaiti dörd müxtəlif layihənin maliyyələşməsi üzrə razılığa gəlirlər ki, bu məbləğin də 20,7 milyon ABŞ dolları Azərbaycan hökuməti USAİD-in hesabına köçürmüşdür.

Dörd layihədən biri kimi "Regional Sosial İqtisadi İnkişaf Proqramı" (SEDA) adlı layihənin icrası da nəzərdə tutulur. Belə ki, bu proqram çərçivəsində bildirilir: SİTAT: "USAİD təfsilatlı regional sosial-iqtisadi inkişaf strategiyası və proqramının hazırlanması və icrasına dəstək göstərəcəkdir..."

Ancaq gəlin görək, ortada hər hansı bir regional-iqtisadi inkişaf strategiyası göründümü? Yaxud, USAİD üzərinə götürdüyü öhdəlikləri tam səmimiyyətlə və vəzifə borcu olaraq reallaşdırıbmı? Çünki görünən budur ki, layihəni "udan" qurum onu tam başqa istiqamətdə yönəltmək cəhdində bulunub. Onları mərhələli qaydada təqdim edirik:

*1. Bu layihənin büdcəsi hər tərəfin bərabər töhfəsi olmaqla 14.4 milyon ABŞ dolları məbləğində müəyyən edilib. Halbuki razılaşmaya əsasən, hər dörd layihəni icra edəcək təşkilatların seçimini tərəflər birgə aparmalı idi. Yeni meydana çıxan fakt budur - USAİD birtərəfli olaraq Azərbaycan hökumətinin iştirakı olmadan SEDA layihəsinin icraçısı kimi məhz Sorosun (!) təsis etdiyi "Şərq Qərb İdarəetmə İnstitutunu" müəyyən edir.*

*2. ŞQİİ tərəfindən isə layihənin bu qurumun Nyu-Yorkdakı ofisindən əlaqələndirici kimi məhz əvvəlki yazımızda qeyd etdiyimiz qalmaqallı sorosçu Delina Fico təyin edilir. Delina Fico layihənin bütün büdcəsinə nəzarət etsə də, məsafədən layihənin icrasına elə də çox müdaxilə edə bilmir.*

*3. Şübhəsiz ki, bu qərar Azərbaycan hökumətini razı sala bilməzdi və o baxımdan, layihənin icrasının başlaması 2011-ci ilin noyabr ayınadək yubanır. Amma hətta layihənin başlamasına yaşıl işıq verilməsinə baxmayaraq, Azərbaycan hökuməti layihəni daimi nəzarətdə saxlamaq üçün layihənin icraçısı olan ŞQİİ-ni qeydiyyata almaqdan imtina edir. Təşkilat bu günə qədər ədliyyə nazirliyində qeydiyyatdan keçmədən fəaliyyət göstərir.*

Beləliklə, məlum olur ki, Sorosun yaxın silahdaşlarından biri olaraq tanınan Delino Ficonun layihə adı altında, əslində, Azərbaycanla bağlı gizli planları aldığı təlimatları demək olar ki, iflasa uğrayır.

### USAİD isə əlavə olaraq layihəyə 8 milyon ABŞ dolları ayırmışdı və...

Bundan əlavə, ikitərəfli memorandumda qeyd olunan əsas məqsədlərə baxmayaraq, ŞQİİ layihənin məqsədlərin tam dəyişərək layihəni 3 komponentə bölərək, regional inkişaf məqsədlərindən uzaq fəaliyyətlər həyata keçirməyə cəhdlər edir. Lakin ŞQİİ bütün səylərinə baxmayaraq, layihə üzrə tərəf müqabili olan dövlət qurumları, layihənin əsas fəaliyyət istiqamətindən başqa fəaliyyətlərlə məşğul olmaq üçün şərait yaratmamışdır. Məhz buna görə, yeni fəaliyyətlərin məhz ölkənin maraqları istiqamətində nəzarətdə saxlanıldığı üçün, hökumət layihənin davamına icazə vermişdi, USAİD isə əlavə olaraq layihəyə 8 milyon ABŞ dolları ayırmışdı və...

Və burda xüsusi qeyd etmək lazımdır ki, USAİD-in layihələri üzrə icraçı təşkilatlar müəyyən faizlə gəlir əldə edirlər. Həmin vəsaitin məbləği "Qeyri-müstəqim Xərclərin dərəcəsi üzrə Saziş" (NEGOTIATED INDIRECT COST RATE AGREEMENT(NICRA)) adlı sənədlə müəyyən edilir. Maraqlısı isə budur ki, ŞQİİ-nin belə saziş üzrə gəlir dərəcəsi ağlasığmaz - 29% səviyyəsində müəyyən edilmişdir. Halbuki ümumi qayda olaraq beynəlxalq təcrübədə analoji QHT-lər və layihələr üçün bu dərəcələr 15% civarında olur. Bu, o deməkdir ki, ŞQİİ və yaxud dolayisi ilə Soros, bu layihədən sırf gəlir kimi 6 milyon ABŞ dollarından çox məbləğdə gəlir əldə etmişdir ki, bu da öz növbəsində həmin tipli layihələr üçün son dərəcə nadir haldır və istər-istəməz ciddi suallar doğurur.

### "Şərq-Qərb İdarəetmə İnstitutu" layihə üzrə gəlir və fəaliyyət hesabatlarını kimdən və niyə gizlədir?

Belə ki, təkcə ŞQİİ-nun layihə üzrə gəlirləri Azərbaycan hökumətinin layihəyə ayırdığı tam məbləğə bərabərdir. Və bütün illər ərzində hökumətin dəfələrlə vəsaitlərin xərclənməsi üzrə hesabat istədiyinə baxmayaraq, ŞQİİ bu günədək belə hesabatları təqdim etməkdən imtina etmişdir. Adi bir sual: hesabatları təqdim etməməklə onlar fəaliyyətlərinin hansı gizlin məqamlarını sirr olaraq saxlayırlar? Yaxud, Azərbaycanda fəaliyyət göstərmələrinə rəğmən, bu ölkənin hökumətinin tələblərinə cavab verməmək tapşırığı haradan və kimdən qaynaqlanır? Həmin qaynağın Soros fondu olmadığını nə ilə sübut edə bilərlər? Suallar çoxdur!

Yeri gəlmişkən, xatırlada bilərik ki, 2020-ci ildə keçirilmiş ABŞ prezident seçkiləri ərəfəsində ŞQİİ-nin son dərəcədə fəallaşması da diqqətdən yayınmayıb. Xüsusən, artıq haqqında məlumat verdiyimiz Delina Fico və onun himayədarı olan Corc Sorosun daim yanında olduqları Co Baydenin dəstəklənməsi istiqamətində siyasi fəaliyyət başlayır. Həmin fəaliyyət çərçivəsində Delinə Fico demək olar ki, ABŞ-ın və Qərbin bir sıra nüfuzlu mətbuat qurumlarında geniş məqalələrlə çıxış edir həm də mediada keçirilən açıq debatlarda qatılmaqla Trampı təhqir edir, Baydeni isə xilaskar adlandırır. Linklər aşağıda:

https://www.youtube.com/-watch?v=8Mholhe7xmE

https://www.youtube.com/-watch?v=xMUN3T1nDm4&feature=youtu.be

https://www.youtube.com/watch?v=v5LixUTP7uA&feature=youtu.be

Bu cür siyasi fəal bir şəxsin ümumiyyətlə hər hansı bir sosial-iqtisadi layihənin icrasının rəhbərliyini tapşırmaq isə bilavasitə nonsensdir..!

Nonsensdir həm də ona görə ki, bu adamlar paralel olaraq ABŞ-ın demokratlar qanadının ermeni lobbisi ilə sıx əməkdaşlıqdadırlar və belə bir fərdin Azərbaycanda hər hansı bir layihə pərdəsi altında təsirli olmaq cəhdi yalnız mənfi təsirlərini göstərə bilər. Bu, hər halda diqqətdə saxlanılması olan bir məsələdir!

### Delino Fico aldığı təlimatları birbaşa özü həyata keçirmək məqsədini icra edəcəyini düşünür

Və nəhayət, ABŞ-da 2020-ci ilin 3 noyabr prezident seçkilərinin ilkin nəticələri məlum olduqdan sonra, yəni məhz Corc Sorosun dəstəklədiyi Co Baydenin prezident seçilməsi elan olunar-olunmaz, Delina Fico belə qərara gəlir ki, artıq layihə üzrə bütün fəaliyyətlərə birbaşa nəzarət etsin və ölkəmizdə fəaliyyət göstərən yerli layihə rəhbərliyini uzaqlaşdıraraq rəhbərliyi bilavasitə üzərinə götürsün. Çünki o yaxşı bilirdi ki, heç bir halda dövlətçilik maraqları başqalarının, xüsusilə anti-Azərbaycan məqsədi təşkilatların qurban verilə bilinməz. Bu baxımdan, hər şeyi nəzarəti altına almağa cəhd göstərən Delino Fico aldığı təlmatları birbaşa özü həyata keçirmək məqsədini icra edəcəyini düşünür. Bəs onların maraqları daha hansı məqamlardan ibarətdir?

### Sorosla bağlı digər qurumların da fəallaşacaqlarını bəri başdan, hətta kifayət qədər proqnozlaşdırmaq mümkündür

Beləliklə, burada digər maraqlı və mühümlük təşkil edən nüans ölkəmizin Sorosun dəstəklədiyi "Paşinyan Ermənistanına" müharibədə qalib gələrək öz ərazilərini azad etməsidir. Belə ki, heç kimə sirr deyil ki, azad olunmuş ərazilərdə müxtəlif layihələr icra olunacaqdır və bu məqsədlər üçün dünya ölkələri külli miqdarda vəsaitlər ayıracaqdır. Şübhəsiz ki, ABŞ hökuməti də bu proseslərdən kənarda qalmayacaqdır və USAİD vasitəsi ilə müxtəlif layihələr icra edəcəkdir. ABŞ-ın ölkəmizdəki səfiri bununla bağlı artıq bəyanatlarla çıxış edib. Onu ehtimal etmək olar ki, Delina Ficonun fəallaşması hər halda məhz bu faktla bağlı ola bilər. Belə ki, əvvəlki yazımızda qeyd etdiyimiz kimi, birbaşa USAİD- i idarə edən Antoni Blinken bilavasitə Sorosla bağlı bir şəxsdir və onun Sorosla bağlı təşkilatların lobbiçiliyini həyata keçirəcəyini istisna etmək olmaz. Xüsusilə, müxtəlif tenderlərdə, iqtisadi layihələrdə iştirakçılıq qismində şübhəli siyasi maraqların icrasına yönəlik planlarının olması çox ciddi şəkildə araşdırılmalı, ifşa olunmalıdır. Bir sözlə, harada Soros varsa, orada qaranlıq məqamların olması da zatən bəllidir... Və bu tək ŞQİİ-ə dəstəklə məhdudlaşmayacaq və eyni zamanda, Sorosla bağlı digər qurumların da fəallaşacaqlarını bəri başdan, hətta kifayət qədər proqnozlaşdırmaq mümkündür. Ona görə də əvvəlki yazımızdakı məqamları da xatırlayarsaq, həmçinin bu yazımızdakı faktları da nəzərə alarsaq, ŞQİİ-nin azad olunmuş ərazilərə məhz Delina Ficonun rəhbərliyi altında "daxil" olmaq cəhdlərinin yumşaq ifadə edərsək xoşniyyətli məqsədlər daşımayacağı qənaətinə gələ bilərik.

### Delina Fico öz fəaliyyətlərini davam edir və aidiyyəti qurumlarla yazışmalar aparır və artıq tam özbaşına və heç bir nəzarət olmadan öz məqsədlərini gerçəkləşdirməyə çalışır

Sonda isə bir daha vurğulamaq istərdik ki, ŞQİİ Azərbaycanda 10 ilə (!) yaxındır ki, tam qanunsuz, yəni Ədliyyə Nazirliyində qeydiyyatdan keçmədən fəaliyyət göstərir. Sonuncu dəfə qeydiyyatdan imtina haqqında qərar Ədliyyə Nazirliyi tərəfindən 5 oktyabr 2020-ci il tarixində göndərilmişdir. Amma qeydiyyatdan imtina olunmasına baxmayaraq, Delina Fico öz fəaliyyətlərini davam edir və aidiyyəti qurumlarla yazışmalar aparır və artıq tam özbaşına və heç bir nəzarət olmadan öz məqsədlərini gerçəkləşdirməyə çalışır. Belə fəaliyyətin arxasında dayanan məqsədlərin, məramların daha təfsilatla araşdırılmasına qədər isə təkcə ortaya qoyulan faktlar müqabilində nəticələr çıxarmaq kifayət edir.

Söz yox ki, aidiyyəti qurumlar da Delina Ficonun ölkəmizdəki şübhəli fəaliyyətlərdən uzaqlaşdırılmasına dair istər layihənin donoru olan USAİD, istərsə də ABŞ-ın ölkəmizdəki diplomatik nümayəndəliyinə müvafiq müraciətlər edə bilərlər.

(ardı var)

**Rövşən RƏSULOV**

ARAŞDIRMA

# Azərbaycan Prezidenti İlham Əliyevin mətbuat konfransı xarici ölkələrin mediasında geniş işıqlandırılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı xarici ölkələrin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**


DÜNYA

Azerbaycan Cumhurbaşkanı Aliyev'den Ermenistan'a uyarı: Ermenistan'ın 10 Kasım bildirisini uygulayacağını umuyorum

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, "Ermenistan'ın 10 Kasım bildirisini uygulayacağını umuyorum. Aksi halde Ermenistan daha da ağır duruma düşecektir." dedi.

Ruslan Rehimov | 26.02.2021


China 22:43, 27-Feb-2021

Azerbaijan praises China for vaccine commitments, opposes disparity in distribution

CGTN 424

File photo of Azerbaijan's President Ilham Aliyev. /Reuters

Azerbaijani President Ilham Aliyev praised Chinese partners on Friday for upholding their COVID-19 vaccine supply commitments, as he expressed concerns over what he believes is an apparent disparity in the global vaccine distribution.

TOP NEWS

China the only major economy to see positive growth in 2020: official

Ambassador hails historically good China-Hungary relations


IRAN DAILY

1113 GMT February 28, 2021

News ID: 281115 Published: 0639 GMT February 26, 2021

Tehran, Baku can make business, transportation opportunities

MNA

The president of the Republic of Azerbaijan has said Tehran-Baku can create a lot of opportunities in the fields of business and transportation activities.

Speaking in a press conference with foreign media in Baku on Friday, Ilham Aliyev made the remarks while commenting on the prospect of Iran and Azerbaijan cooperation in the post-Karabakh war era in response to a question by Iran's Mehr News Agency correspondent.

Latest News

- Iran stresses commitment to Iraq's stability
- Iran Air Force has full operational dominance over region
- Iran, Syria discuss cultural, media cooperation
- Iran to uninstall IAEA cameras, delete data if US sanctions not lifted: Salehi
- Without evacuation, US would've lost 150 troops in Iran attack: Commander
- Zarif: US attack on Iraqi forces 'dangerous'
- Tehran, Baku can make business, transportation opportunities
- Venezuelan minister: Iran among world's oldest civilizations
- Iran celebrates Imam Ali (PBUH) birth anniversary, Father's Day in Pakistan
- Fajr Visual Art Festival Winners announced


ДИАЛОГ

Алиев предложил сепаратистам Карабаха перейти на суахили вместо русского языка: "Это ничего не меняет"

Президент Азербайджана Ильхам Алиев резко отреагировал на планы непризнанной "НКР" сделать русский язык "государственным" в Карабахе.


КорреспонденТ.net

Азербайджан начал строительство аэропорта в Нагорном Карабахе

ТЕКСТ: ОЛЬГА ЯНИВИ, 26 февраля 2021, 12:07

В оперативные сроки аэропорт будет сдан в эксплуатацию - Алиев

AZƏRTAC xəbər verir ki, xarici KİV-lər dörd saatdan çox davam etmiş mətbuat konfransında Prezident İlham Əliyevin jurnalistlərin suallarını ətraflı şəkildə cavablandırdığını, vacib məsələlərə toxunduğunu, bir sıra önəmli mesajlar verdiyini qeyd ediblər.

Türkiyənin "Anadolu", İHA, "Sputnik Türkiye" xəbər agentliklərində, "Haberler" portalında, "TRT Haber", "Haber Türk", "CNN" "Haber Global", "A Haber", "NTV" telekanallarında, "Yeni şafak", "Hurriyet", "Posta", "Milliyet", "Sabah" qəzetlərində yayılmış məlumatlar "Azərbaycan Prezidenti Əliyev: Azərbaycanda türk Ordusunun kiçik modelini quracağıq", "Əliyevdən Ordumuza böyük qiymət: Azərbaycanda türk ordusunun kiçik modelini quracağıq", "Azərbaycan Prezidenti Əliyevdən Ermənistandakı hərbi çevriliş cəhdi haqqında açıqlama", "Azərbaycan Prezidenti İlham Əliyev: Türk Ordusu bizim üçün ən məqbul modeldir", "Ərdoğan və Əliyevdən Ermənistana mesaj", "Azərbaycan Prezidenti Əliyevdən mühüm açıqlamalar" və s. sərlövhələrlə təqdim edilib.

Rusiyanın "TASS", "Ria Novosti", "İnterfaks", "Vestnik Kavkaza", "Regnum" agentlikləri, "RBK", "RT", "Vesti", "360" telekanalları, "Arqumenti i faktı", "Nezavisimaya qazeta", "Kommersant", "İzvestiya", "Rossiyskaya qazeta", "Vzqlyad" qəzetləri, "Life", "Lenta" saytları Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış vəziyyət, işğaldan azad edilmiş ərazilərdə görülən quruculuq işləri, Azərbaycanda vaksinasiya prosesi, üçtərəfli Bəyanatın icrası barədə fikirlərini geniş şərh ediblər.

Rumıniyanın "Ultima Ora" (Son saat) qəzeti və "News24hours" xəbər portalı, Yunanıstanın "Real Group Media" şirkəti, Ukraynanın "Obozrevatel", "Podrobnosti", "Stopcor", "Baqnet", "Tsn", "Dialog", "Korrespondent", "Polemika" xəbər portalları Azərbaycan Prezidentinin mətbuat konfransının dünya ictimaiyyətinə önəmli mesajların çatdırılması baxımından mühüm rol oynadığını qeyd ediblər. Materiallarda bildirilir ki, Prezident İlham Əliyev mətbuat konfransında müxtəlif regional məsələlərlə bağlı jurnalistlərin suallarını 4 dildə dəqiq, səlis və məntiqli cavablandırıb. Azərbaycan Prezidentinin güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğu vurğulanıb.

Çinin milli xəbər agentliyi Sinxua, Çin Mərkəzi Televiziyası və digər media or-

# Azərbaycan Prezidenti İlham Əliyevin mətbuat konfransı xarici ölkələrin mediasında geniş işıqlandırılıb


KYIVSTAR 55% 10:33
ТСН $27.93 €34.15 Киев +2°C

УКРАИНА И АЗЕРБАЙДЖАН МОГУТ ВОССТАНОВИТЬ ВОЕННОЕ СОТРУДНИЧЕСТВО: АЛИЕВ ОЦЕНИЛ ПЕРСПЕКТИВЫ

26 февраля 15:55 687

*Президент Азербайджана отметил, что военно-технический комплекс Украины переживает период своего развития.*


Ultima oră — ziar național independent — Distincția culturală a Academiei Române

EXTERN

Conferința de presă susținută de președintele Republicii Azerbaidjan İlham Aliyev a transmis mesaje foarte importante comunității mondiale

Conferința de presă susținută de președintele Republicii Azerbaidjan IlhamAliyev pentru reprezentanții presei locale și străine în 26 februarie are o mare importanță în ceea ce privește transmiterea adevărului despre Azerbaidjan comunității mondiale.

Trebuie remarcat faptul că la conferința de presă, care a durat mai mult de 4 ore, au participat reprezentanți ai presei de top din lume. Șeful statului a dat răspunsuri detaliate la aproximativ 50 de întrebări din partea a peste 35 de reprezentanți ai presei.

În aceste răspunsuri, alături de realitățile din Azerbaidjan, au fost transmise mesaje foarte importantev comunității mondiale. A fost reiterată poziția fără echivoc a Azerbaidjanului, au fost indicate direcții specifice pentru viitorul statului Azerbaidjan și al regiunii.

Președintele a atras din nou atenția liderilor mass-media străine asupra politicii Armeniei de genocid împotriva Azerbaidjanului și a spus din nou lumii adevărul despre Khojaly.

Demonstrând înalte abilități diplomatice și elocvență, șeful statului a răspuns la întrebări fluent, în detaliu, cu


Президент Ильхам Алиев провел пресс-конференцию для представителей местных и зарубежных СМИ

Posted By gbnews-admin - Воскресенье Февраль 28th, 2021 15 Leave a comment

26 февраля Президент Азербайджанской Республики Ильхам Алиев провел пресс-конференцию для представителей местных и зарубежных СМИ.

Как сообщает АЗЕРТАДЖ, обращаясь к представителям медиа Президент Ильхам Алиев сказал:

GÜNDEM / АКТУАЛЬНО

Президент Азербайджана на длившейся более 4 часов пресс-конференции ответил на около 50 вопросов 35 медиа структур
Воскресенье Февраль 28th, 2021

(Turkish) Türkiye ve Kırgızistan Eğitim İlişkileri üzerine söyleşi
Воскресенье Февраль 28th, 2021

В прошлом году в Азербайджане зарегистрировано свыше 35,3 тысячи браков
Воскресенье Февраль 28th, 2021

(Turkish) Türkistan – İstanbul uçak seferleri başladı


Home | China | World | Asia & Pacific | Europe | Africa | North A

Asia&Pacific | China-Asia&Pacific | Opinion | Window of China | Latest | Phot

www.news.cn 新华网 NEWS Asia&Pacific Sunday, February 28, 2

Chinese partners uphold COVID-19 vaccine supply c Azerbaijani President

Source: Xinhua | 2021-02-27 19:23:02 | Editor: huaxia

BAKU, Feb. 27 (Xinhua) -- Azerbaijani President Ilham Aliyev praised Chinese partners on Friday for upholding their COVID-19 vaccine supply commitments, as he expressed concern over what he believes is an apparent disparity in global vaccine distribution.

"Despite all the statements about solidarity and combined efforts against the coronavirus, in practice, we see that the picture is completely contrary. For example, some countries buy vaccines three or four times more than they need ... This means that someone (else) would not (be able to) receive the jab," he told a video press conference.

Azerbaijan joined COVAX, a multinational vaccine-sharing initiative backed by the World Health Organization, at the very beginning when it was launched, Aliyev said.

Noting that "Chinese partners have remained true to their commitments," the president said his country has yet to get any of the other vaccines it needs to receive.

qanları Prezident İlham Əliyevin mətbuat konfransında vaksin mövzusundakı fikirlərinə geniş yer veriblər. Çin KİV-ləri Azərbaycan Prezidentinin mətbuat konfransında çinli tərəfdaşların vaksin təchizatına dair öhdəliklərini yerinə yetirməsi barədə xoş sözlərini də təqdim ediblər.

Livanın "Al-Masdar News" xəbər saytının, İranın "Mehr" xəbər agentliyinin və "Iran Daily" qəzetinin yaydığı informasiyalarda Prezident İlham Əliyevin mətbuat konfransında bölgədəki mövcud vəziyyət, region ölkələrinin əməkdaşlığı ilə bağlı fikirləri əks olunub. Qırğızıstanın "Goldenbridgenews" və "Turkeltoday" portalları isə Prezident İlham Əliyevin mətbuat konfransının mətnini tam şəkildə yayıblar.

Gürcüstanın "1tv" kanalı, "Pia", "Kvira" "Imedi News", "For", "Report", "Aktual", "Interpress", "Gaxa", "Marneulifm" saytları dövlətimizin başçısının mətbuat konfransında səsləndirdiyi fikirləri geniş oxucu auditoriyasına çatdırıblar.

# “Rusiya hərbçilərinin komandanı təxribatları özbaşına etmir”



**“Bu gün də Ermənistanın bir sıra təxribat planları var. Ermənistan “hərbi mükələfiyyətlə” Qarabağa heç kimi göndərməməlidir. Onlar sərhədlərini aşırlar, Laçında tikinti işləri ilə məşğul olub saxta xəritələr yayımlayırlar. Bundan əlavə 5 ildən sonra bizim Rusiya hərbçilərinə ehtiyacımız olmamalıdır. Bu məsələdə Türkiyə də bizi dəstəkləyir. Azərbaycan hərbi texnikanın alınmasında dostları olan Türkiyə və İsrailə üstünlük verəcək”. Bunu SİA-ya açıqlamasında “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.**

Onun sözlərinə görə, Ermənistan heç bir resursu olmayan 2 milyonluq dövlətdir: “Hərbi texnikasının 90 faizi məhv olub. Onlar bizlə yenidən savaşa bilmək üçün görüntü yaradırlar. Rusiya da Ermənistanı əlaltı olaraq görür. Nikol Paşinyan məğlub dövlətin Baş naziridir. Açıq danışsaq, Dağlıq Qarabağı Ermənistana yükdür. Onlar övladlarını Qarabağda cəbhəyə göndərmək istəmir və ordu üçün maliyyə vəsaiti ayırmaqdan yayınırlar. Paşinyana qarşı müqavimət və itaətsizliyin daha da artacağı göz önündədir. Bütün bunlardan sonra o məcbur olub parlament seçkilərinə gedə bilməyəcək. Lakin, bu da Ermənistanın problemlərini həll etmir. Müxalifət səs qazanacağına ümid etmədiyi üçün seçkidə iştirak etmək istəmir. Bu məsələlər hələ uzun müddət Ermənistanda davam edəcək. Rusiya sülhməramlılarının Xankəndidə ermənilərə havadarlıq etməsi, “dövlət dilinin rus dili elan olunması” və rus pasportu paylanılması ideyasının arxasında yaltaqlıq nümayiş etdirilir. Ermənilər hətta o həddə çatıb ki, rus dilini də dövlət dili kimi qəbul edirlər. Azərbaycanda isə Azərbaycan dilidir və bu Rusiyaya ciddi mesajdır. Bizdə kifayət qədər rusdilli məktəblər olsa da, bu dilimizə mənfi təsir etmir”.

E.Şahinoğlu deyib ki, Rusiya ordusu ermənilərin “başını tumarlayır” və onları Qarabağa köçürməklə keçmiş vilayət məsələsini bərpa etməyə çalışır: “Birinci növbədə Şuşa və Hadrut olmaq üzrə rayon və şəhərləri bərpa etməliyik. Çünki bu ərazilər Dağlıq Qarabağın mərkəzidir. Biz Dağlıq Qarabağ ifadəsindən imtina etməliyik. Bu ad sadəcə Qarabağ adlandırılmalıdır. Covid-19 bitdikdən sonra ermənilər Qarabağda yaşamaq istəməyəcəklər. Onlar özləri də etiraf edir ki, bu il Ermənistanı tərk edənlərin sayı 200 min olacaq. Ermənilərdən ancaq bizim pasportu daşıyan və qanunları qəbul edənlər Qarabağda yaşaya bilərlər. Regionun hazırki geosiyasi mənzərəsini nəzərdən keçirsək, Qarabağda ermənilər və Rusiya sülhməramlıları ilə bağlı müşahidələr Azərbaycan cəmiyyətində narazılıq yaradıb. Biz Türkiyə ilə ittifaqı gücləndirməyə üstünlük veririk və ordumuz türk standartlarına uyğundur. Bizim Rusiya və İrandan əsas tələbimiz daxili işlərimizə qarışmamalarıdır. Bir il öncə Şuşanın azad olunacağını xəyal belə edə bilməzdik. Əvvəllər deyirdik ki, Dağlıq Qarabağın ətrafındakı beş rayon azad olsa belə bu böyük mövqedir. İndi isə Dağlıq Qarabağın tamamına sahib olduq. Biz 80-85 faiz hədəfimizə çatmışıq. Dövlət başçısının dörd saat davam etdiyi mətbuat konfransında bizi narahat edən bir çox mətləblərə toxunuldu.

Bu il bizim üçün quruculuq ili olmalıdır və tikinti işlərini sürətləndirməli, Ağdamı, Füzulini, Şuşanı, Cəbrayılı, Kəlbəcəri yenidən qurmalıyıq. Erməni separatçılarının lideri Arayik Harutyunyanın iştirakı ilə qondarma respublikanın qurulmasının otuz üç illiyi qeyd edildi. Rusiya bu tədbirə imkan verməməli idi. Onların buna mane olmamasının səbəbi Rusiyanın siyasi və hərbi mərkəzlərinin Azərbaycan ərazisində separatçılığın qalmasını istəməsi idi. “Dəmir Yumruq” Qarabağ haqqında olan üçüncü kitabımdır. Adı da əbəs yerə seçilməyib və analitik kitabdır. Burada iki əsas məsələyə toxunulub ki, onlardan birincisi 10 noyabrda baş verən Naxçıvan səmasında Rusiya helikopterinin vurulması idi. Digəri isə Bakı səmasına raket atılmasıdır. Bu hadisəni ya Rusiyada olan erməni havadarları ya da hər hansı erməni generalı Nikol Paşinyanla razılaşmayıb törədib. Müharibə zamanı Ermənistanda minlərlə fərari olsa da, Azərbaycanda göstərici sıfır idi. Bunlar bizim keyfiyyət göstəricimizdir. Onların bütün hesablamaları yanlış çıxdı. Ermənistanda hakimiyyətə gələn bütün prezidentlər Azərbaycanla müharibə edə bilməyəcəyini anlamalıdır”.

Politoloq deyib ki, Ermənistanın ikinci prezidenti Robert Köçəryan Putinin ən yaxın dostlarından biri hesab olunur: “Lakin Koçəryana görə Azərbaycanla münasibətləri soyutmağın mənasız olduğunu Putin də anlayır. Paşinyanın “İsgəndər” raketlərinin keyfiyyətsizliyi haqqında sözləri Rusiyanın hərbi sənaye kompleksinə böyük zərbə vurdu. İşğaldan azad etdiyimiz ərazilərdə minaların qalması son dərəcə təhlükəli hesab olunur. Minaların xəritəsinin təqdim olunmamasının tək məqsədi Azərbaycan vətəndaşlarına daha çox ziyan verməkdir. Xəritəni bizə versələr, əsirləri geri qaytararıq. Ermənistan mediası bu mövzu haqqında heç bir məlumat paylaşmayıb. Dağlıq Qarabağda qalan erməni tör-töküntüləri Rusiya sülhməramlılarının iştirakı ilə Azərbaycan qanunlarını saymadan tədbirlər keçirirlər. Rusiya hərbiçilərinin komandanı Rüstəm Məmmədov təxribatları özbaşına etmir, Moskvadan əmr alır. Bunun üçün o Bakıya bir daha çağırılmalı, qırmızı cizgilər detallı şəkildə izah edilməlidir. Bu qaydalar nəzərə alınmazsa, artıq biz öz üsulumuzca hərəkətə keçməliyik. Azəybaycanlı qaçqın və məcburi köçkünlərin öz yurduna qayıtması üçün olan proseslər Şuşadan başlanıla bilər. Görüntülərdən aydın olduğu kimi bunun səbəbi Ağdam, Füzuli, Zəngilan və Cəbrayılın tamamilə dağılması, lakin Şuşa və Hadrutda nisbətən yaşayış binalarının qalmasıdır”.

***Ayşən Sadıxzadə***

# “Prezident onların cavablarını yerində verdi”

“26 fevral Xocalı soyqırımın növbəti ildönümündə cənab Prezident İlham Əliyevin yerli və xarici jurnalistlər üçün təşkil etdiyi 4 saatlıq mətbuat konfransı dünya mediasında sanki sensasiya doğurdu”. Bunu SİA-ya açıqlamasında “Bakı Xəbər”qəzetinin baş redaktoru Aydın Quliyev deyib.



Aydın Quliyev bildirib ki, cənab Prezidentin təşkil etmiş olduğu mətbuat konfransına videoformatda və ya canlı olmasından aslı olmayaraq beynəlxalq mediada çox böyük diqqət olacaq: “44 günlük müharibə bölgədə yeni reallıqlar yaradır və hətta qlobal geosiyasətdə artıq müəyyən yeniliklərin əlamətləri görsənməkdədir. Mətbuat konfransında Azərbaycan Prezidentinin bir çox dünya liderlərindən fərqli şəxsi keyfiyyətləri nümayiş etdirməsi bu hadisəyə beynəlxalq medianın diqqətini artıran motivlər idi. Ölkə başçısının bir neçə dildə 4 saat ərzində yorulmadan sualları cavablandırması,təmkinli olması, soyuqqanlı davranması həqiqətən də möhtəşəm idi. Hətta bir neçə məqamlarda təmkini saxlamaq doğurdan da böyük fədakarlıq idi.

Baş redaktorun sözlərinə görə, müharibədən sonra dünyada maraq o idi ki, Azərbaycan hansı siyasəti yürüdəcək? Müharibə günlərində Azərbaycanın rastlaşdığı reallıqlara münasibəti necə olacaq? Azərbaycanı faktiki olaraq müharibə meydanlarında dünya tək qoydu. Halbuki Azərbaycan haqlı tərəf idi. Ölkə hansı iradəni nümayiş etdirəcək? və s. bu kimi suallar xarici media nümayəndələri üçün maraqlı idi: “Müxtəlif motivlər altında mətbuat konfransına marağın böyük olacağı əvvəlcədən gözlənilirdi və bu istiqamətdə proqnozlar özünü doğrultdu. Ümumiyyətlə 44 günlük müharibə dönəmində cənab Prezidentdən götürülən müsahibələrdə jurnalistlərin davranışında tendensiyalara uyğun olaraq ambisiyozluq var idi. Həm də bu, sonuncu videokonfransda özünü bir daha göstərdi amma müharibə dövründə qərəzlilik daha kəskin hal almışdı. Çünki Prezident onların cavablarını yerində verdi”.

A.Quliyev onu da əlavə edib ki, Azərbaycan qalib ölkədir, ona görə də qərəzli təxribat xarakterli sualların azalması gözlənilən hal idi: “Konfransda cəmi bir nəfər jurnalistdə qərəzli davranış özünü göstərdi. Düşünürəm ki, İran dövləti öz jurnalistinin Azərbaycan Prezidentinə niyə qərəzli sual ünvanladığını ortaya çıxaracaq. Çünki bu suala dəfələrlə cavab verilib ki, Azərbaycan ordusunun sıralarında heç bir zaman muzdlu döyüşçülər olmayıb”.

***Qönçə Quliyeva***

# Hazırda itkin düşmüş hərbçilərin sayı 28 nəfərdir



Müdafiə Nazirliyi Vətən müharibəsində itkin düşmüş şəxslərin yeni siyahısını yayıb. Belə ki, itkin düşmüş hesab olunan 28 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunub. Məlumata görə, itkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir.

Xatırladaq ki, Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yeni siyahısını açıqlayıb. Siyahıda Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından martın 2-dək dəfn edilən 2 881 nəfərin, eləcə də itkin düşmüş hesab olunan 28 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunub.

# Yoluxma artdı, karantin rejimi yenidən sərtləşdiriləcək?

**Azərbaycanda koronavirusa yoluxma faktının qeydə alındığı ilk gündən (2020-ci il fevralın 28-dən) indiyədək ölkədə 235 014 nəfər bu virusa yoluxub, 3 225 nəfər vəfat edib. Trend-in məlumatına görə, bu gün açıqlanan rəsmi statistik göstəricilərə əsasən, ölkədə COVID-19 infeksiyasına yoluxma sayı ötən günlə müqayisədə 3 dəfəyə yaxın artaraq 352-ə çatıb.**

Azərbaycanda yoluxmanın pik vəziyyəti ötən ilin dekabr-bu ilin yanvar ayının əvvəllərində qeydə alınıb. Həmin dövrdən sonra yoluxma sayı getdikcə azalıb. Fevralın 5-dən sonra isə yoluxma sayı hətta 300-ü belə keçməyib.



Yoluxma sayındakı azalmadan sonra bu gün sayın 3 dəfəyə qədər artması sözsüz ki, karantin tədbirlərinin sərtləşdirilə bilməsi məsələsi barədə məlumatların dolaşmasına da səbəb olur. İnsanlar arasında yayılan məlumatlarda yaxın günlərdə məktəblərdə dərslərin dayandırılması barədə fikirlər səsləndirilsə də, bu, hələlik təsdiqlənmir.

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov hazırda məktəblərdə tədrisin davam etdiyini açıqlayıb. Nazirlik rəsmisi əyani tədrisin dayandırılacağı ilə bağlı hər hansı rəsmi qərarın verilmədiyini söyləyib: “Bu qərar ölkənin sanitar-epidemioloji vəziyyəti nəzərə alınmaqla verilir. Məktəblərdə tədrisin başlanılacağı və ya dayandırılacağı barədə qərarı Təhsil Nazirliyi deyil, Nazirlər Kabineti verir”.

Tibb üzrə fəlsəfə doktoru Yazgül Abdiyeva Trend-ə açıqlamasında bildirib ki, əslində, insanlar yoluxma sayının artması səbəbindən karantin qaydalarının sərtləşdirilə bilməsi haqqında deyil, vaksinasiya olunmaq haqqında düşünməlidirlər: “Artıq bir ildir ki, ölkəmizdə pandemiya ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilib. Bu müddətdə ən sərt karantin qaydaları da tətbiq edilib, müxtəlif qapanmalara gedilib. Lakin bütün bunlar ona görə edilib ki, pandemiyadan qurtulmaq üçün görülməsi mümkün olan başqa tədbir olmayıb, həmin dövrdə virusa qarşı vaksin də tapılmamışdı. Amma artıq vaksin hazırlanaraq istifadəyə verilib”.

Y.Abdiyeva qeyd edib ki, Azərbaycan vaksinasiya prosesinə tez başlayan azsaylı ölkələrdən biridir. Ölkədə artıq 293,360 nəfər COVID-19 infeksiyasına qarşı vaksin olunub: “İndi bizim əsas məqsədimiz COVİD-19-a qarşı peyvənd vurdurmaq olmalıdır. Yalnız vaksinasiya prosesində aktiv iştirak etməklə pandemiyadan qurtula bilərik. Əgər pandemiyadan qurtulacağıqsa, o zaman artıq qapanmalar, sərt karantin tədbirləri haqqında fikirləşməli olmayacağıq, darıxdığımız ənənəvi həyatımıza geri qayıdacağıq”.

# “Prezidentin mətbuat konfransı beynəlxalq məkanda böyük rezonans doğurdu”

**“Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı dünyanın aparıcı kütləvi informasiya vasitələrində geniş təhlil olunmaqdadır. Mətbuat konfransının məhz Xocalı faciəsinin Anım günündə keçirilməsi xüsusi məna daşıyırdı. Dövlətimizin başçısı dünya ictimaiyyətinin diqqətini bir daha soyqırım faktına yönəltməklə bildirdi ki, Xocalı faciəsi Ermənistan tərəfindən Azərbaycan əhalisinə qarşı törədilmiş qanlı cinayətdir, soyqırımdır.**



Prezident bölgədə formalaşan yeni reallıqlar baxımından kifayət qədər uğurlu keçən mətbuat konfransında jurnalistlərin bütün suallarına dəqiq və tutarlı arqumentlərlə cavab verərək nüfuzlu xarici media orqanlarının diqqətini daha çox Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə yönəldib”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ağalar Vəliyev söyləyib.

Millət vəkili bildirib ki, Vətən müharibəsinin başladığı ilk günlərdən Türkiyə dövləti sülhə və sabitliyə hesablanmış davranış nümayiş etdirərərək haqq işində Azərbaycana çox böyük siyasi və mənəvi dəstək göstərib: “Dövlətimizin başçısı mətbuat konfransında türkiyəli jurnalistin suallarını cavablandıraraq bildirib ki, Türkiyə bu gün dünya miqyasında güc mərkəzi kimi, bütün bölgələrdə, o cümlədən bölgəmizdə olduqca müsbət rol oynayır və bu, bölgənin sabitliyi üçün çox önəmlidir.Türkiyə Müdafiə Nazirliyindən 100-dən çox mütəxəssis Azərbaycana ezam edilməsi, eləcə də Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması da əhəmiyyətli addım sayılmalıdır”.

Türkiyə ilə Azərbaycanın maddi-texniki əməkdaşlığının daha da gücləndirilməsindən söz açan Ağalar Vəliyev onu da diqqətə çatdırıb ki, qardaş ölkədən xeyli sayda mina təmizləmə texnikasının alınıb gətirilməsi minaların qısa zamanda zərərsizləşdirilməsini və dinc quruculuq mərhələsinin başlanmasını təmin edəcək: “10 noyabr tarixli Bəyanatın bir bəndi Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, həmçinin Azərbaycanı Türkiyə ilə və eyni zamanda, Rusiyanı Türkiyə ilə birləşdirən nəqliyyat dəhlizinin açılması barədə olub. Regionun gələcək inkişafı və inteqrasiya layihələrinin icrası üçün unikal kommunikasiya imkanları yaradan bu dəhlizin işə düşməsi ilə Avrasiyanın yeni bir nəqliyyat damarı açılacaq.

Regional əməkdaşlıq layihələrinə qoşulmaqla bağlı müsbət yanaşma nümayiş etdirərsə, o zaman Ermənistan da regional proseslərin iştirakçısına çevrilə bilər. Bu gün Ermənistan bütün resurs imkanlarından məhrum olmuş və küncə sıxılmış vəziyyətdədir. Bu dövlətin özünü bərpa etməsi yolu Azərbaycan və Türkiyə ilə qarşılıqlı əməkdaşlıqdan keçir”.

Deputat vurğulayıb ki, Qarabağın bərpa-yenidənqurma işlərində Türk şirkətləri yaxından iştirak edəcəklər: “Bununla bağlı mətbuat konfransında geniş söz açan Prezident bildirib ki, Azərbaycan üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətə başlayıblar. Eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə uzanan yolun çəkilişinə də türk şirkətləri cəlb ediliblər. Türkiyə şirkətləri indiyəcən Azərbaycanda təqribən 10 milyard dollardan çox dəyəri olan müxtəlif inşaat layihələrində iştirak ediblər”.

Ağalar Vəliyev qeyd edib ki, Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlıq daha da genişlənəcək: “İndi bütün dünya müharibə dövründə Türkiyə müdafiə sənayesinin keyfiyyətindən və Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycanda məharətlə istifadə edilməsindən danışır. Təsadüfi deyil ki, bu da Azərbaycanın Vətən müharibəsində böyük üstünlüyünü təmin edib. Bu gün Azərbaycan Türk Ordusunun kiçik modelini yaratmaq əzmindədir və bunun üçün 10 dəfədən çox ortaq hərbi təlimlərin keçirilməsi təmin olunub”.

Milli Məclisin üzvü onu da söyləyib ki, hər zaman Azərbaycanın yanında olan Türkiyə Ermənistanla sərhədlərini 1993-cü ildə Kəlbəcərin işğalından sonra bağlamaqla qardaşlıq nümunəsi göstərdi və bu mətbuat konfransında xüsusi qeyd olunub: “Ermənistan-Azərbaycan sərhədi açılırsa, Türkiyə-Ermənistan sərhədinin bağlı qalmasına da təbii ki, ehtiyac qalmayacaq və bunu Türkiyə özü müəyyən edəcək. Zəngəzur dəhlizinin işə düşməsi reallaşdırılarsa, bu təqdirdə Türkiyə-Ermənistan sərhədi də açılacaq. Türkiyə dövlətinə göstərdiyi bütün dəstəyə görə bir daha təşəkkürünü bildirən Prezident İlham Əliyevin bəyan etdiyi kimi, regionun davamlı sabitliyi üçün bütün ölkələr arasında münasibətlərin normallaşdırılması və qarşılıqlı əməkdaşlığın qurulması zəruridir”.

# YAP Ağsu rayon təşkilatı “Şəhid ailələrinə qayğı” aksiyasını davam etdirir

**YAP Ağsu rayon təşkilatının nümayəndələri “Şəhid ailələrinə qayğı” aksiyası çərçivəsində Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələri, sağlamlığını itirmiş qazilərimiz mütəmadi olaraq ziyarət edirlər.**

**Aksiya çərçivəsində növbəti ziyarət Vətən müharibəsinin şəhidləri Sübhan Cəfərov Mehman oğlu, Fərid Nəcəfov Fərman oğlu, Şaiq Cavadzadə Faiq oğlunun məzarlarının ziyarət edib, önünə gül dəstələri qoyublər, ruhlarına dualar oxunub.**





Sonra YAP Ağsu rayon təşkilatının üzvləri şəhid ailələrinin üzvləri ilə görüşüb söhbət ediblər. Söhbət zamanı qeyd olunub ki, hər birimiz Vətən müharibəsinin şəhidlərinə, onların ailə üzvlərinə, Vətən uğrunda sağlamlığını itirən qazilərimizə, düşmənlə üz-üzə qəhrəmanlıq dastanı yazan müzəffər Ordumuzun qalib əsgərlərinə minnətdarıq. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qazilər, Müzəffər Ordunun qalib əsgərləri daima dövlətimizin və Yeni Azərbaycan Partiyasının xüsusi diqqət və qayğısı mərkəzindədir.

Görüş zamanı bildirildi ki, şəhid Sübhan Cəfərov Mehman oğlu 1999-cu ildə Ağsu şəhərində anadan olmuşdur. Oktyabrın 10-da Suqovuşan istiqamətində gedən döyüşlərdə Şəhidlik zirvəsinə ucaldı. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Şəhid Şaiq Cavadzadə Faiq oğlu 1995-ci ildə Ağsu rayonunun Ülgüc kəndində anadan olmuşdur. Oktyabrın 29-da Füzulinin işğaldan azad olunması uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə “Vətən uğrunda” medalları ilə təltif olunub.

Şəhid Nəcəfov Fərid Fərman oğlu 2001-ci il mayın 11-də Ağsu şəhərində anadan olmuşdur. Fərid oktyabrın 17-də Murovdağın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif olunub. Görüşlər zamanı şəhid ailələrinin qayğıları ilə maraqlanıldı, onlara ərzaq sovqatı, maddi yardım göstərilib.

Şəhid ailələrinin üzvləri onlara göstərilən diqqət və qayğıdan razı olduqlarını bildiriblər və şəhidlərimizin əziz xatirəsini hər zaman uca tutan möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə və Birinci xanım, vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Allah bütün Şəhidlərimizə rəhmət eləsin.

*Rəfiqə HÜSEYNOVA*

# Prezidentimiz Azərbaycanın qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi



“Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək”, “Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq”, “Azərbaycan münaqişəni istənilən yolla həll edəcək”, “Tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev son 17 il prezidentliyi fəaliyyəti müddətində dəfələrlə deyib. Sonda “Qarabağ Azərbaycandır və nida” söyləyən Prezidentimizin Ali Baş Komandanlığı altında və “dəmir yumruq” siyasəti ilə 44 gün davam edən İkinci Qarabağ Müharibəsi Qələbə zəfəri ilə başa çatdı. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, dünyada kifayət qədər güclü erməni lobbisi olmasına, bir çox aparıcı dövlətlərin Ermənistanı dəstəkləməsinə baxmayaraq Azərbaycan dövləti öz vədini yerinə yetirdi. Azərbaycan Prezidenti ölkənin ərazi bütövlüyünün bərpa olunacağı və bunun istənilən yolla təmin ediləcəyinə dair vədinin 44 günlük Vətən müharibəsində yerinə yetirilməsi bir daha bu sözləri təsdiqlədi.

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Qarabağın heç bir statusunun olmadığını, “Dağlıq Qarabağ” ifadəsinin istifadəsinin yanlış olduğunu bildirdi: “Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Faktiki olaraq bu gün ümumiyyətlə, “Dağlıq Qarabağ” ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir. Onun bir hissəsində erməni xalqı yaşayır, biz buna etiraz etmirik. Başqa ərazilərimizdə də erməni əhalisi yaşayır və heç bir problem yaşanmır”.

Göründüyü kimi, dünya mediasını heyran qoyan Liderimiz 4 saatdan çox davam edən mətbuat konfransında 35-dən çox media nümayəndəsinin 50-yə yaxın sualına 4 dildə ətraflı cavab verməklə dünya mediasının heyrətinə səbəb oldu. Bu bizim Prezidentimizin bütün sahələrdə uğurları olduğu kimi, informasiya sahəsində də növbəti Qələbəsidir. 4 saat davam edər bu tarixi mətbuat konfransında dövlət başçımız hər suala cavablarında Azərbaycan həqiqətləri ilə yanaşı, dünya ictimaiyyətinə olduqca mühüm mesajlar da çatdırdı. Azərbaycanın birmənalı mövqeyi yenidən ortaya qoyuldu, dövlətimizin və regionun gələcəyi ilə bağlı konkret istiqamətlər göstərildi. Ən əsası isə, mətbuat konfransında dünyanın çoxsaylı nüfuzlu media qurumlarının təmsil olunması, Prezidentə ünvanlanan suallar 44 günlük Vətən müharibəsindən sonra Azərbaycana artan maraqdan xəbər verirdi. Bu da onunla əlaqədardır ki, artıq regionda yeni reallıq yaranıb. Bu reallığı Azərbaycan yaradıb. Və bu gün dünyanın aparıcı media qurumları regionda baş verən hadisələrin şərhini məhz Azərbaycan Prezidentindən almağa çalışır. Çünki Vətən müharibəsi dövründə informasiya siyasətinə birbaşa rəhbərlik edən Prezident İlham Əliyev dünyanın 30-dan çox nüfuzlu media qurumuna müsahibələr verdi. Beləliklə, döyüş meydanı ilə yanaşı, informasiya cəbhəsində də düşmənin bütün təxribatlarının qarşısı alındı, onun yalanları ifşa olundu. Məhz Prezident İlham Əliyevin qətiyyəti, əsaslı arqumentlərə söykənən çıxışları sayəsində bütün dünya Azərbaycan xalqının ədalət uğurunda mübarizə apardığının şahidi oldu. Bu gün müharibənin bitməsindən dörd aya yaxın vaxt keçməsinə baxmayaraq, hələ də ağır məğlubiyyətin acısını yaşayan Ermənistanda bəzi siyasətçilər hakimiyyətə gəlmək üçün müəyyən revanşist fikirlər səsləndirir, xaricdəki havadarlarının köməyi ilə hakimiyyəti ələ keçirib, ordunu gücləndirib yenidən müharibəyə başlamaq barədə düşünürlər. Mətbuat konfransında bu məsələyə də toxunan dövlətimizin başçısı bu cür düşünənlərə açıq şəkildə xəbərdarlıq etdi: “Ermənistan siyasi dairələri anlamalıdırlar, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır. Biz hər hansı bir təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır”.

Bir sözlə, dövlətimizin başçısının bu xəbərdarlığı erməni siyasətçilərini düşündürməlidir və Ermənistan davamlı inkişaf, dayanıqlı sülh istəyirsə, Azərbaycan Prezidentinin təşəbbüslərinə uyğun olaraq, iddialarından əl çəkməli və yeni reallıqlardan, əməkdaşlıq imkanlarından faydalanmalıdır. Dövlət başçımızın dediyi kimi: “Biz hələ bundan sonra da güclənəcəyik, hərbi və iqtisadi potensialımız artacaq, beləliklə Azərbaycanla revanşist mövqedən çıxış edən tərəflər bilməlidirlər ki, ölkəmizin “dəmir yumruğ”u hər zaman hazır vəziyyətdədir, onların başını bundan sonra da əzəcək. Sadəcə, izləyib nəticə çıxarmaq lazımdır”.

***Həmid Pənahov,***
***YAP Qazax rayon təşkilatının sədri***

# COVID-19 dünyanı sınağa çəkməkdədir: Ötən il maska davası edənlər bu il peyvəndə keçiblər




**COVID-19 pandemiyası yaratdığı fəsadlarla bərabər, beynəlxalq münasibətlər sisteminin xarakterinə də aydınlıq gətirmiş oldu. Bununla da böyük dövlətlərin pandemiya ilə mübarizədə nümayiş etdirdikləri mövqe onlar üçün demokratiya, insan haqları və bu qəbildən olan anlayışların digər ölkələrə qarşı təsir vasitəsi olmaqla onların daxili işlərinə qarışmaq, sabitliyi pozmaqdan savayı heç nə ifadə etmədiyi bir daha ortaya çıxdı.**

Hələ pandemiya ilə mübarizənin ilk aylarında böyük iqtisadiyyata, insan resurslara, elmə, hərbi potensiala və digər göstəricilərə malik dövlətlərin koronavirus qarşısında özünəqapanma yolunu seçmələri bir yana, digərlərinə qarşı xudbinlikləri açıq-aşkar ortaya çıxdı. Dünyaya məlum oldu ki, başqa vaxt digər ölkələrə qarşı davranışlarında demokratiya və insan haqlarını əllərində bayraq edənlər koronavirus təhlükəsi meydana çıxandan kömәkdən imtina az imiş kimi, bəzi hallarda qonşuları üçün göndərilən humanitar yardımı (əsasən tibbi maskadan ibarət olan) belə mənimsəməyə əl atdılar.

Pandemiya ilə mübarizənin növbəti peyvəndləmə mərhələsində də bu, özünü göstərməkdədir. Belə ki, dünyanın yarısında peyvəndləyə başlamaq imkanının olmamasına baxmayaraq, bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin əldə ediblər. Fevralın 26-da Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bu məsələyə toxunaraq vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsünün vacibliyinə toxunaraq bu məsələdə tamam başqa mənzərənin şahidi olmasına diqqəti çəkib: “Görürük ki, hətta müttəfiqlər arasında da ciddi problemlər yaranır, kimin neçə vaksindən istifadə etməsini və kimin kimə nəyi yarımçıq verməsini hesablamağa başlayırlar. Ona görə bu vəziyyət bir daha göstərir ki, həmrəylik barədə, bu bəlaya qarşı birgə mübarizə barədə bütün bəyanatlara baxmayaraq, praktikada tamamilə əks vəziyyət görürük. Məsələn, bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar. Misal üçün Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu, onlara maraqlı deyil”.

Burada bir daha aydın olur ki, sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edən ölkələr təcrübədə milyonlarla insanın, o cümlədən yoxsul ölkələrdən və buna imkanı olmayan insanların yaşamaq hüquqlarını tapdalayırlar. Hətta bu qrupdan olan ölkələrin maddi imkanları olsa belə, COVID-19 əleyhinə peyvənd onlar üçün əlçatan deyil.

Bu mənada “Sizə açıq deməliyəm, əgər biz bütün istehsalçılarla saziş bağlamasaydıq, - bunu etmişik, - bu gün biz də vaksinsiz qalardıq” deyən Prezident İlham Əliyev Azərbaycanın da belə ayrıseçkiliklə üz-üzə qaldığını, lakin bu istiqamətdə aparılmış düzgün siyasətin nəticəsində hazırda vaksinləmənin həyata keçirildiyi ölkələrin sırasında yer almasına imkan verib.

İstənilən halda ölkə başçısının “Biz “AstraZeneca” vaksinini çoxdan almalı idik. Almamışıq. Artıq bir neçə aydır ki, almamışıq. “Sputnik” vaksinini də almamışıq. “COVAX” təşəbbüsü üzrə “Pfizer” və “Moderna” peyvəndlərini almalı idik, almamışıq. Özü də bizə onları nə vaxt alacağımızı demirlər. Yaxşı ki, bizim çinli tərəfdaşlarımız öz öhdəliklərini yerinə yetirirlər” deməsi dünyada peyvənd əldə edilməsi sahəsində vəziyyətin hansı yerdə olmasına aydınlıq gətirir. Belə görünür ki, vaksin almağa imkanı olmayan, bir çox hallarda buna maddi imkanı olsa da, əldə edə bilməyən ölkələrin üzləşdikləri vəziyyət əsl insanlıq dramıdır. İndiyədək insan haqlarını əldə tutaraq əslində dünyanı qan gölünə çevirənlər bu dəfə daha da irəli gedərək özləri xaric digər ölkələri ölümcül virusla baş-başa qoymaqdadırlar.

Bu baxımdan Prezident İlham Əliyevin “Bizim bunu almaq üçün vəsaitimiz var. Bəs, vəsaiti olmayanlar nə etsinlər? Bu adamlar ölməlidirlər? Deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar. Biz hansı bərabərlikdən danışırıq?” fikri Azərbaycanın bu məsələdə həm milli mənada, həm də üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi prinsipiallığının nümayişidir.

“The London Post” qəzetində dərc olunan məqalədə deyilir ki, COVID-19 pandemiyası beynəlxalq səhiyyə sistemindəki boşluqları və zəif cəhətləri ortaya çıxararaq bütün dünya üçün əsl sınaq olub, pandemiyanın bəzi məqamları siyasiləşdirilib və bəzi ölkələr millətçi proqramlarını beynəlxalq cəmiyyətin kollektiv sağlamlığından üstün tutublar. Yazıda qeyd edilir ki, pandemiyanın gətirdiyi kədərli tendensiyalar arasında ən son və ən aktual olanı isə “peyvənd millətçiliyi”dir.

Nəşr yazır ki, peyvəndlərin qlobal paylanması nə ədalətli, nə də bərabər olub. Hətta inkişaf etmiş ölkələri peyvənd paylanması mövzusunda aralarında mübarizə aparıblar.

Qeyd olunur ki, idarə olunan 128 milyon doza peyvəndin dörddə üçündən çoxu ümumilikdə 10 ölkədə tətbiq edilib. Təxminən 2,5 milyard əhalisi olan 130 ölkədə hələ də COVID-19 peyvəndi tətbiq edilmədiyi halda, digər ölkələr əhalisini dəfələrlə aşılayacaq qədər peyvəndlə təmin edib.

Qəzetin qeyd etdiyi kimi, peyvəndləmə proqramında beynəlxalq əməkdaşlıq gücləndirilməzsə, virus sirkulyasiya etməyə, mutasiyaya uğramağa davam edəcək, daha çox qaçınılmaz ölümlərə səbəb olacaq və qlobal iqtisadi artımı azaldacaq. Bunu nəzərə alaraq, ədalətli peyvənd paylama təşəbbüsünə qoşulmaq və “Hamı təhlükəsizlikdə olmayınca heç kim təhlükəsizlikdə deyil” şüarını izləmək daha az xərc tutumludur.

Azərbaycan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkil etdiyi “COVID-19 pandemiyası və peyvəndləmənin geosiyasəti” beynəlxalq vebinarı zamanı Argentinadakı Çağdaş Yaxın Şərq Araşdırmaları Mərkəzinin (CEMOC) prezidenti Paulo Botta Latın Amerikasında peyvəndlərə məhdud təklif, maliyyə və siyasi məhdudiyyətlər barədə danışıb. Onun sözlərinə görə, COVID-19-dan ölüm hallarının çox olmasına baxmayaraq, Latın Amerikası peyvənd tətbiqinin hələ başlanğıc mərhələsindədir.

Eyni tədbir zamanı Salvadordakı Beynəlxalq Münasibətlər Araşdırmaları Mərkəzinin (CEERES) icraçı direktoru Sezar Edqardo Martines Flores “İctimai səhiyyə və təməl xidmətlər sahəsində cəmiyyət olaraq uğursuz olduq: COVID-19 ilə millətçiliyin yenidən bərpa olunduğunun şahidinə çevrildik” deyib. Vaksin millətçiliyinin əməkdaşlığa zərərli təsirindən danışan Flores ölkələrin kimin peyvəndi birinci hazırlayacağı ilə bağlı öz aralarında yarışmasının böhranı daha da artırdığını söyləyib.

Yerdə bundan nəticə çıxarmalı ölkələrin vaxtında atacaqları addımlar qalır. Əks təqdirdə pandemiyanın nəticələri nəinki peyvəndləmədən kənarda qalan ölkələr, hətta ehtiyacından 3-4 dəfə çox vaksin əldə etmiş ölkələr üçün də ağır olacaq. Məsələ burasındadır ki, iniyədək bu virusun nümayiş etdirdiyi əsas özəllik ondan ibarətdir ki, ondan qurtulmaq COVID-19-un dünya üzrə tam aradan qalxmasından sonra mümkündür. Bu, virusun həm sürətlə yayılması, eyni zamanda, mutasiyaya uğraması kimi xüsusiyyətlərindən irəli gəlir.

Təsadüfi deyildi ki, bu gün vaksin hərisi olan ölkələrin əksəriyyəti pandemiya başlayar-başlamaz tərki-dünya olub özünəqapananlar idi...

***Ceyhun Piriyev***

# Niderlanddakı soydaşlarımız növbəti erməni saxtakarlığını ifşa edib




İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun tam qələbəsini həzm edə bilməyən erməni millətçiləri təxribat fəaliyyətlərini davam edirlər. AZƏRTAC xəbər verir ki, Niderlandda fəaliyyət göstərən və faşist Qaragin Njdenin adını daşıyan radikal erməni təşkilatı yenidən təxribata əl atıb.

Niderlanddakı Azərbaycan səfirliyinin qarşısında qondarma və uydurma “soyqırımları anımı” aksiyasına çağırış məqsədilə sosial şəbəkələrdə və öz internet səhifələrində istifadə etdikləri elan posterində Azərbaycanın ən qanlı səhifəsi olan Xocalı soyqırımının qurbanlarını ermənilər kimi təqdim ediblər.

Avropa Azərbaycanlıları Media Qrupunun rəhbəri Emil Əliyev və digər fəal azərbaycanlılar ciddi araşdırmalar apararaq, ermənilərin yalanına qarşı dərhal reaksiya veriblər. Soydaşlarımız qısa zamanda sosial şəbəkələrdə kompaniyaya başlayaraq, Niderland, İtaliya və Avropanın digər ölkələrində yaşayan həmyerlilərimizlə bərabər səhifənin şərh və mesaj bölümünə yüzlərlə şərh və mesaj yazaraq həmin paylaşımı sildirməyə nail olublar.

# Azərbaycanda koronavirusdan 143 nəfər sağalıb, 352 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 143 nəfər müalicə olunaraq sağalıb, 352 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.




Hazırkı dövrədək ölkəmizdə 235 min 14 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 228 min 982 nəfər müalicə olunaraq sağalıb, 3225 nəfər vəfat edib. Aktiv xəstə sayı 2807 nəfərdir. Ötən müddət ərzində 2 milyon 610 min 880 test aparılıb. Bugünkü test sayı isə 7996-dır.

# “Qasparyan kapitulyasiyadan sonra Paşinyanı bunkerdə gizlətmişdi”



Baş nazir Nikol Paşinyanın Silahlı Qüvvələrin Baş Qərargah rəisi Onik Qasparyanın vəzifəsindən azad olunmasında israr etmək hüququ yoxdur. Azvision.az xəbər verir ki, bu barədə Ermənistan müdafiə nazirinin keçmiş müavini, xarici əlaqələr üzrə parlament komissiyasının sabiq rəhbəri Artak Zakaryan “Facebook”da yazıb. O bildirib ki, Qasparyan bütün ömrünü silahlı qüvvələrə həsr edib, sədaqətlə xidmət göstərib və hörmət qazanıb. Zakaryanın fikrincə, Baş Qərargah rəisinin yeganə səhvi təslim sənədini imzalayandan dərhal sonra Nikol Paşinyanı həbs etməməsidir.

“Qasparyanın səhvi budur ki, o, sizi (Paşinyanı - red) xalq vendetasından qorumaq üçün Müdafiə Nazirliyinin bunkerində gizlətdi. Qasparyanın nəcibliyi və vətənpərvərliyi müharibədən sonrakı dövrdə müxalifəti bir müddət hökuməti dəstəkləməyə inandırması ilə özünü göstərdi”, - deyə Zakaryan qeyd edib.

ANALİTİK

# Erməniləri düşündürən sual: böhrandan çıxış, yoxsa qaranlıq keçmişə qayıdış?

## Armenianreport: "Ermənistan qardaş qırğınının və vətəndaş müharibəsinin astanasında dayanıb"



**Ermənistanın vətəndaş qarşıdurması, hətta müharibəsi astanasında dayanması faktı artıq reallığa çevrilən mənzərəni açıq şəkildə ortaya qoymaqdadır. O cümlədən, bu gün məğlub ölkənin siyasi çevrələri arasında cərəyan edən hadisələr, xüsusilə iqtidar və müxalifət daxilindəki fikir ayrılıqları daxili savaşın miqyasını daha da artırmaq üzrədir. SİA xəbər verir ki, belə bir nəticəyə elə erməni KİV-lərində gedən yazı və informasiyalardan da nəticə çıxarmaq mümkündür. Misal üçün, Armenianreport-un analitik bölməsində baş verən proseslərlə bağlı şərh-yazıda bildirilir.**

### Müəllif Tevos Arşakyan: "Bəli, mübahisə etmirəm, Nikol Paşinyan heç də ideal siyasətçi deyil..."

SİTAT: "Böyük təəssüflə bir-birinə güzəştə getmək fikrində olmayan qarşı tərəflər ölkəni sürətlə arxasında vətəndaş müharibəsi görünən uçuruma doğru itələyirlər. Bəli-bəli, bu gün tam aşkar şəkildə təsdiq etmək olar ki, Ermənistan yeni tarixində qardaş qırğınına səbəb olacaq vətəndaş müharibəsinin astanasında dayanıb. Elə bir müharibənin ki, köhnə və yeni Ermənistanın tərəfdarları toqquşacaqlar".

Müəllif Tevos Arşakyan yazır ki, Nikol Paşinyanın istefasını tələb edənlərə şəxsən onda sual yaranır. "Yox, elə sanmayın ki, biz Paşinyandan və onunla birlikdə addımlayanlardan yanayıq. Yox, biz sadəcə anlamaq istəyirik ki, müxalifətin mitinqinə kimlər qoşulmaq istəyir: nəyə və kimə görə mübarizə aparırsınız?

Bəli, mübahisə etmirəm, Nikol Paşinyan heç də ideal siyasətçi deyil. O, ermənilərin Li Kuan Yunu ola bilmədi və Ermənistanı güclü iqtisadiyyatı və sistemli demokratik dəyərlərə söykənməli olan çiçəklənən dövlətə çevirmədi. Ancaq o son 20 ildə xalqda olmayan azadlığı verdi. Düşüncə, azad söz, şəxsi azadlıq və toplaşma azadlığını. Bunu müxalifətin keçirdiyi mitinqlərindən də görmək olar", deyə erməni müəllif yazıb.









### Jurnalist: "Məgər Robiki və Serji dəstəkləyərək müxalifət tərəfindən çıxış edənlər Nikol Paşinyan dövründən fərqli olaraq belə bir şeyləri təsəvvürlərinə gətirə bilərdilər?"

Təbii ki, Armenianrepor-un analitik yazarı burada Paşinyan iqtidarı ilə keçmiş siyasi hakimiyyətləri - Koçaryan və Sarqsyan cütlüklərini müqayisə edir və bəlkə də onlarla müqayisədə Paşinyan az-çox müsbət yöndə qiymətləndirilə bilər...

Məsələn, o yazır ki, son 20 ildə ilk dəfə hakimiyyət sistemli korrupsiya ilə, məmur özbaşınalıqları ilə mübarizə aparmağa başladı. Həmçinin, sadə erməni vətəndaşı sosial şəbəkə üzərindən şəxsən imkan tapdı ki, birbaşa dövlət başçısı ilə rabitədə olsun, öz tələb və təkliflərini irəli sürsün.

"Məgər bu azmıdır? Məgər Robiki və Serji dəstəkləyərək müxalifət tərəfindən çıxış edənlər Nikol Paşinyan dövründən fərqli olaraq belə bir şeyləri təsəvvürlərinə gətirə bilərdilər?", deyə sual edilir.

Lakin bununla yanaşı, ikinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas günah və suçlarının Nikol Paşinyanın üzərində olduğunu yazan Tevos Arşakyan əlavə edib ki, bu mübahisəsiz belədir, amma...

### Daha bir sual: "Bu ordu generaliteti qisa və texnika təchizatlarını talan edirdi, hərbi təlimlərlə məşğul olmurdu, indi də birdən-birə süddən çıxmış ağ qaşığa döndülər?"

SİTAT: "Ancaq qiyamçı generalitet, Onik Qasparyan (Baş qərargahın rəhbəri) da hərbi əməliyyatlara rəhbərlik etmirdimi? Məgər Paşinyan kimi onlar da məğlubiyyətə görə məsuliyyət daşımırlarmı? Bu ordu generaliteti qisa və texnika təchizatlarını talan edirdi, hərbi təlimlərlə məşğul olmurdu, indi də birdən-birə süddən çıxmış ağ qaşığa döndülər? Axı nəyə görə ölkəmizdə bir çoxları birdən-birə Onik Qasparyana qarşı sevgilərini izhar etməyə başladılar?".

Müəllif digər bir amilə də toxunur və sual edir ki, Vazgen Manukyan və Onik Qasparyan və onların simasındakı müxalifət bizə nə təklif edə bilərlər? Onun sözlərinə görə, bu adamların ölkəni böhrandan çıxarmaları üçün dəqiq mövqeləri yoxdur. Jurnalist həmçinin yazır ki, onların Ermənistanın gələcəyinə və dünyadakı yerinə yönəlik dəqiq təsəvvürləri mövcud deyil. Onlar sadəcə hakimiyyət hərisliyi ilə alışıb-yanırlar. Lakin hakimiyyətə yiyələnmək asan olsa da, onu saxlamaq hər kəsə müyəssər olmur.

### Robert Koçaryan haqqında: "Putinin dostu, Ermənistanı Rusiyanın marionetinə çevirən adam, yüz minlərlə erməni miqrant və ölkənin iki milyon yarımdan çox ümidsiz qulları"

SİTAT: "Əgər iqtidarı qazansalar onlar hakimiyyətlərini qoruyub-saxlaya biləcəklərmi? İnanmıram. Açıq-aydın bəllidir ki, Robert Koçaryan hakimiyyəti onların əllərindən alacaq. Həmin Koçaryan ki, bir sıra KİV-lər və teleqram-kanallar onun barəsində ağızdolusu yazırlar. Putinin dostu. Ermənistanı Rusiyanın marionetinə çevirən adam, yüz minlərlə erməni miqrant və ölkənin iki milyon yarımdan çox ümidsiz qulları. O anlayır ki, ədalətli seçkilər vasitəsi ilə ölkə rəhbərliyini əldə edə bilməyəcək, ona görə də hadisələrdə ilişib-qalmış xalq üzərində manipulyasiya edir".

Tevos Arşakyan müraciət edərək yazısında bildirir ki, onlar heç də Paşinyanın tərəfdarları deyillər, onlar Koçaryan rejiminin bərpasına qarşıdırlar. "Sizlərdən hər biriniz bu gün ürəyiniz və vicdanınız necə hökm edirsə, elə də davranmalısınız", yazan müəllif bildirir ki, xüsusilə müxalifət tərəfdarları mitinqlərə gedərkən bir dəfə geriyə dönərək öz övladlarına baxsınlar və onların gələcəklərini kimlərə (Koçaryana işarə edərək-R.R.) təhvil verəcəklərini düşünsünlər.

"Sizlər az da olsa sabitlik, demokratiya istəyirsiniz, yoxsa xaos və qaranlıq keçmişə doğru yuvarlanmaq?" deyə sual edilir.

**Rövşən RƏSULOV**

# Margin radikalların çirkin niyyətləri...

*AXCP-”Milli Şura” Qarabağ müharibəsi əlilləri üzərindən antitəbliğata cəhd...*

**10 noyabr qələbə Zəfərindən sonra radikal müxalifətin təşviqi, vurnuxmaları özünü getdikcə daha qabarıq formada büruzə verir. Belə ki, yenə də AXCP sədri Əli Kərimli Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə etməklə, cəmiyyətdə çaşqınlıq yaratmağa çalışdı. Guya ki, bu kateqoriyadan olan insanlara cəmiyyətimizdə biganə münasibət var, dövlətin onlar üzərində heç bir qayğısı və diqqəti yoxdur.**



Ancaq sosial şəbəkə istifadəçiləri Əli Kərimlinin yalan üzərində qurulmuş “informasiya tələsini” ifşa və iflas etməklə AXCP sədrinin planlarını alt-üst etmiş oldu. Lakin hər zamankı kimi, bu dəfə də sosial şəbəkə istifadəçiləri, xüsusilə gənclər Əli Kərimliyə və onun trollarına sözlərini dedilər və antitəbliğat kampaniyasını iflasa uğratdılar. Nə yazıq ki, belə “sapı özümüzdən olan çürük balta saplarımız” da var ki, bu riyakarlıqları ilə bir daha ermənilər tərəfindən tərəfindən “bəslənildiklərini” açıq-aşkar göstərir. Və belələri unudurlar ki, dövlətə, xalqa qarşı edilən xəyanətlər heç zaman bağışlanmır. Bu ünsürlər unutmamalıdır ki, Azərbaycan xalqının milli birliyi, Azərbaycan Ordusunun rəşadəti və Ali Baş Komandanımızın qətiyyəti nəticəsində azad edilən bu torpaqlar bir vaxtlar məhz onların hakimiyyət oyunlarının qurbanına çevrilmişdi.

Dövlət başçısı çıxışlarında, müraciətlərində dəfələrlə vurğulayıb ki, torpaqları satan AXC-Müsavat cütlüyü bilməlidir ki, tarixi faktları saxtalaşdırmaq olmaz: “Hər kəs bilməlidir, torpaqları satan kimdir, əsarətdən qurtaran kimdir... AXC-Müsavat cütlüyünün bu cinayətləri heç vaxt bağışlanılmayacaq və unudulmayacaq. Həmçinin, cinayətkarlar cəzasını çəkəcəklər. Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fərariddir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır”.

Bu gün isə, AXCP-”Milli Şura” Qarabağ müharibəsi əlilləri üzərindən antitəbliğata cəhdi, doğrudan da həyasızlıq, mənəviyyatsızlıq, əxlaqsızlıq və nəhayət cinayətkarlıqdır. Özü də adı “qazi” olan Tofiq Yaqublu kimilərin mövqeyi, ancaq və ancaq Vətənə xəyanətkarlıqdır.

### Sərdar Cəlaloğlu: “Müxalifətçi olmaq haqqı danmaq demək deyil”

“Tofiq Yaqublunun mövqeyi çox ədalətsiz mövqedir. İlham Əliyev rəsmi olaraq Ali Baş Komandandır. Deyə bilərəm ki, hətta həyatını riskə ataraq Rusiya və digər bir sıra dövlətlərin maraqlarına zidd addımlar atıb. Ona görə kimsə deyə bilməz ki, vətən müharibəsində cənab Prezidentin xidməti yoxdur”. Bunu SİA-ya açıqlamasında Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu deyib. Partiya sədri bildirib ki, ayrı-ayrı ölkələrin jurnalistləri Azərbaycanın mövqeyi ilə bağlı hücuma keçərkən Prezident İlham Əliyevin onları neytrallaşdırması belə çox böyük iş idi: “Bu müharibənin aparılmasının əleyhinə tək Rusiya deyil, Avropa dövlətlərinin bir çoxu və ABŞ-da bu məsələnin əleyhinə idi. O qüvvələr də hamısı Ermənistanın yanında idi. Həmin qüvvələri neytrallaşdıran, beynəlxalq ictimaiyyəti Azərbaycanın haqq işində məlumatlandıran da Prezident İlham Əliyev idi. Ona görə də mən Tofiq Yaqublunun bu fikrini qərəzli mövqe hesab edirəm”.

S.Cəlaloğlu vurğulayıb ki, biz nə qədər müxalifətçilik etsək də, əgər obyektiv olmasaq, onda heç kim bizim mövqeyimizin obyektivliyini qəbul etməyəcək: “Haqlının haqqını vermək lazımdır, o hətta bizim düşmənimiz olsa belə. “Müxalifətik” deyib məsələlərə bu cür yanaşsaq, bu, ədalətsizlik olar. Ona görə də mən Tofiq Yaqublunun fikirləri ilə qətiyyən razı deyiləm. Bu gün danılmaz faktdır ki, Prezident İlham Əliyevin siyasəti nəticəsində bu qələbəyə nail olduq. İlham Əliyev həm ölkənin Prezidenti, həm də Ordunun Ali Baş Komandanıdır. Ona görə də qazanılan hər bir uğuru onunla əlaqələndirməliyik. “Müxalifətçi” olmaq haqqı danmaq demək deyil. Müxalifət iqtidardan da vicdanlı olmalıdır. Yoxsa biz ağa qara, qaraya ağ desək xalq bizə heç vaxt dəstək verməz. Rəqibin haqqını vermək lazımdır”.

Və bu gün şantajçılıqla məşğul olan erməni yalaqları AXCP-”Milli Şura” düşmən çətirinin altına sığınıb öz xalqına, dövlətinə qarşı yalan və iftira atan, birbaşa düşmən qoltuğuna sığınan xəyanətkarlar bilməlidirlər ki, bu satqın və böhtançılar mütləq, amma mütləq cavab verməli olacaqlar - Özü də Azərbaycan xalqı və qanunları qarşısında!

***Rəfiqə HÜSEYNOVA***

## Yarıprezidentliklə idarə olunacaq ölkənin yarıermənilərі



“Nikol Paşinyan yarıprezidentlik idarəetmə sisteminə keçmək fikrini irəli sürərək, sadəcə olaraq, müxtəlif manipulyasiyalarla öz hakimiyyətini əlində saxlamaq üçün dəridən-qabıqdan çıxır”. SİA erməni mətbuatına istinad edir. Ermənilərin bir deputatı var Naira Zohrabyan, yuxarıdakı fikirləri də o baş nazirin qarasıycan deyib. Zalımın qızı Paşinyan hakimiyyətə gəldiyi birinci gündən düşünüşüb onunla. Əvvəllər yenə də, işi altdan-altdan görürdü. İndi açıq aşkar, imkan düşdü- düşmədi Nikola “ilişir”. Deyən gərək, bundan sonra baş nazir olacaq ərin yox, oğlun yox. Səni də ki, bundan sonra baş nazir olmağa yaxın buraxmazlar. Özün başa düş, üzvi olduğun “Çiçəklənən Ermənistan” partiyası bu günədək ermənilər üçün qanqaldan başqa bir şey yetişdirməyib. Adını “çiçəklənən” qoymaqla deyil ki...

İndi də başlamısan ki, guya Paşinyan özü vaxtilə yarı prezident modelinin uğursuz bir idarəetmə sistem olduğunu deyib, daha nə bilim nə... Deyib, lap əcəb edləyib deyib. Baş nazir deyil? Həmən, yəni sözü deyən vaxt ona sərf edmirmiş, indi sərf edir. Ölkədə sözükeçər bir dənə baş nazir olar. O da Paşinyandır. Amma işləməyinə imkan vermirsiniz. Hər sözünə bir şəbədə qoşursunuz. Deyirsən, Paşinyan azad və ədalətli seçki və ya referendum keçirə bilmir və bilməyəcək, ona görə getməlidir. Nə bilim, onu bu gün ölkədə heç kim istəmir və daha nələr...

Səndən soruşuram, Koçəryan olmasın, lap elə Sarkisyan olsun, onlar bəyəm Ermənistanda azad və ədalətli seçki keçirmişdilər? Bəs onda niyə dinmirdin? İndi Nikolun çuxasını tüstülüyən görmüsüz bəyəm? Adama deyərlər ki, əvvəl düşün, sonra danış. Deyirsən, Paşinyanın keçirdiyi mitinqinə gələnlər erməni xalqına, onun ölülərinə hörmətsizlik ediblər. Belə çıxır ki, onlar əsl erməni deyillər? Onda, icazə ver mən belə düşünüm ki, bunlar yarıprezidentliklə idarə olunacaq ölkənin yarıermənilərіdirlər.

...Əslində mən, indi də, Ermənistandakı bütün ermənilərin hamısının atasının “naturalnıy” erməni olduğuna şübhə edirəm...

***Ağasəf Babayev***

## Paşinyan “küçə” siyasətində güclü “liderdir”

Paşinyan hesab edir ki, “küçə” onun hakimiyyətdə və siyasətdə ömrünü uzadacaq “İki sahil” “Tert.am” a istinadən bildirib ki, Russiya



mətbuatı İrəvanda keçirilən hökumət və müxalifət qüvvələrinin mitinqlərinə toxunarkən, Nikol Paşinyanın hakimiyyəti üç il əvvəl qazandığı üsulla saxlamağa çalışdığını vurğulayıb. Erməni müxalifəti baş nazir Nikol Paşinyanın məğlub olduğunu və gedişini qanuni olaraq rəsmiləşdirilməsini əminliklə diqqətə çatdıraraq bildirib ki, “Nikol Paşinyan küçə döyüşləri taktikasından istifadə edərək kreslosunu əldən verməməyə çalışır”.

Ancaq bir həqiqət də danılmazdır ki, Paşinyan - “küçə” siyasətində güclü “liderdir”. Artıq 3 ildir ki, baş nazir öz maraqları naminə məhz “küçə” siyasətindən istifadə edir.

Hazırda Nikol Paşinyan müharibəni uduzduqdan sonra belə hesab edir ki, “küçə” siyasətindən istifadə edərək siyasətdə və hakimiyyətdə ömrünü uzatmaq arzusuna nail olacaq. Lakin bir çox politoloqlar son hadisələrin baş nazirin artıq öz kürsüsünü qoruya bilmək iqtidarında olmadığını sübut etdiyi qənaətinə gəliblər.

***Könül Əliyeva***

## Artak Davtyan: “Hərbçilər danışmağa başladılarsa, vəziyyət fəlakətlidir”



“Hərbçilər danışmağa başladılarsa, vəziyyət fəlakətlidir və bunun üçün başqa bir arxa plan axtarmağa ehtiyac yoxdur.” SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu “İravunk”la söhbətində Baş Qərargahın məlum açıqlamasını şərh edərkən, Baş Qərargahın keçmiş rəisi general-leytenant Artak Davtyan deyib.

“Heç kimə sirr deyil ki, ölkəmizdə problem bir və ya iki deyil, onların sayı çoxdur və eyni zamanda bu problemlər müxtəlifdirlər. Onları bir gün daha tez həll etmək ehtiyacı taleyüklüdür. Bu problemlər dialoq yolu ilə aradan qaldırılmalıdır. Ölkəmiz onsuz da çətin vəziyyətdədir və hər hansı bir şok vəziyyət rəqiblərin növbəti qələbəsidir və buna görə də daha yaxşı düşünmək lazımdır.

Düşünürəm ki, hər hansı bir qurum açıqlama verə bilər və bunun üçün bu açıqlamada məsul bir lider var. Siyasətin bura qarışdırılması üçün heç bir səbəb görmürəm. Əksinə, Baş Qərargahın açıqlaması dövlətin pis işlədiyini göstərir. Bu, ümumi vəziyyətin o qədər də əlverişli olmadığını və bunun gözlənilməz nəticələrə səbəb ola biləcəyini göstərir”, deyə A. Davtyan bildirib və bu barədə “İravunk qəzeti yazır.

Göründüyü kimi, Ermənistanda vəziyyət həqiqətən də kritikdir və bunun fəlakətli olduğu da artıq ermənilərin özləri tərəfindən etiraf olunur. İndi bu işğalçı ölkədə nələrin baş verəcəyi, necə baş verəcəyi, hansı fəlakətlər törədəcəyi an məsələsidir. Heç şübhəsiz ki, Baş Qərargahın açıqlaması dövlətin pis işlədiyini göstərir və bir çox məqamlardan xəbər verir. Əbəs yerə deyil ki, Baş Qərargahın keçmiş rəisi hərbçilərin danışacaqları anda məsələnin daha kritik, daha fəlakətli olacağını indidən xəbər verir. Qeyd edək ki, bu bir proqnoz deyil və xatırladaq ki, hazırki baş nazir Nikol Paşinyan da iki il yarım öncə mitinqlər təşkil etdiyi zaman hərbçilər işə qarışdığı zaman hər şey onun xeyrinə bir anda həll olundu və bu ölkədə çevriliş bir anda baş verdi. Bu baxımdan həqiqətən də Ermənistanda vəziyyət fəlakətlidir.

***İnam Hacıyev***

# Qlobal GMO terroru: Azərbaycan necə qorunur?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Son zamanlar aktual məsələlərdən biri də ölkəyə biotəhlükəli malların idxalı və istehsalının artmasıdır. Bazar-dükanlar belə məhsullarla doludur. Dünyada açıq şəkildə qida terrorunun həyata keçirildiyi bir vaxtda bu sahədə müdafiəsiz qalmaq çox təhlükəlidir.**

Ölkəmizdə genetik strukturu şübhəli genlərlə dəyişdirilmiş məhsulların istehsalı, idxalı və satışı niyə artır?

## ABŞ-dan dünyaya ixrac olunan problem nəyə səbəb olur?

Qida məhsullarının yararlılıq müddətini uzatmaq və dadlılığını artırmaq məqsədilə onların genetikasının dəyişdirilməsi təcrübəsi ilk dəfə keçən əsrin ortalarında ABŞ-da həyata keçirilib. Hazırda geni dəyişdirilmiş məhsulların istehsalı və istifadəsinə, həmçinin dünyaya yayılmasına görə də ABŞ liderlik edir.

ABŞ-ın bir çox transmilli şirkətləri bütün dünyada, xüsusən də, əhalisinin əksəriyyəti yoxsulluq səviyyəsində yaşayan ölkələrdə genetik səviyyədə modifikasiyaya uğramış kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalını və satışını durmadan artırır. Genetik modifikasiya olunmuş (GMO) məhsullar həmin ABŞ transmilli şirkətləri üçün böyük gəlir mənbəyidir.

Son 20 ildə GMO məhsullar dünyanın əksər ölkəsində təbii məhsulları sıxışdırmağa başlayıb. BMT ekspertlərinin araşdırmalarına görə, artıq dünyada əkin sahələrinin 70 faizində transgen məhsullar becərilir.

Son illər təbii məhsul əkin sahələrinin sayı 10 dəfələrlə azaldılıb. Artıq əksər ölkələrdə fermerlər asan qazanc məqsədilə geni dəyişdirilmiş məhsullara üstünlük verirlər. Bu vəziyyət davam etsə, yaxın illərdə təbii bitkilərin əkin sahəsi tamamilə məhv edilə bilər. Araşdırmalara görə, hazırda dünya əhalisinin 70-80 faizi genetik dəyişikliyə məruz qalan məhsullarla qidalanır. Tədricən insanların gen strukturunda ciddi dəyişikliklər baş verir.

## GMO məhsullar bəşəriyyətə ağır faciələr bəxş edir

Əgər ekoloji cəhətdən təmiz və ya normal şəraitdə yetişdirilən, kənd təsərrüfatı məhsullarını saxlama müddəti çox az olursa, GM məhsullarda bu müddət uzundur. Belə məhsulları uzaq məsafələrə daşımaq, satmaq və ya emal etmək asandır. Çünki, "mutant" meyvə uzun müddət normal vəziyyətdə qalır.

Qeyd edək ki, transgen məhsullar becərilərkən uyğun olmayan genlər birləşdirilir. Gen heyvanlardan, bitkilərdən, hətta viruslardan götürülə bilər. Alimlərin əksəriyyəti GMO məhsulların geniş yayılmasının əleyhinədir.

Bu məhsulların zahiri gözəlliyi arxasında dəhşətli və təhlükəli xəstəliklər dayanır. Ən təhlükəlisi isə budur ki, bu məhsullar insanın genetik strukturunda dəyişiklərə səbəb olur. Belə məhsullarla qidalanan adamın övladlarında dəyişikliklər təhlükəli, nəvələrində isə faciəli formada olur. Transgen məhsullar insanlarda sonsuzluq yaratmaq xüsusiyyətinə malikdir.

Təsadüfi deyil ki, hazırda bir sıra ölkələr geni dəyişdirilmiş məhsulların istehsal və satışına qadağa qoyub. Bir çox ölkələrdə isə geni dəyişdirilmiş məhsulun xüsusi işarələnməsi qaydaları tətbiq olunur. İstehsalçı məhsulun üzərində geni dəyişdirilmiş orqanizmin olması haqqında məlumat yerləşdirməlidir. Lakin dünyada tamamilə GMO-laşdırılmış qarğıdalı və portağaldan hazırlanan məhsulların üzərində "tərkibində GMO yoxdur" qeydi vurulur.



## Alimlər həyəcan təbili çalır, amma...

Gen mühəndisliyinin inkişafı artıq təhlükəli tendensiyalara təkan verib. Bəzi araşdırmalara görə, tədricən insanların genində dəyişikliklər baş verir. Hətta yaxın gələcəkdə bir sıra təhlükəli xəstəliklərin yaranması və yayılması da ehtimal edilir. Alimlər israr edirlər ki, belə məhsullardan daimi istifadə insanları mutantlara və zombilərə çevirəcək.

Fransada aparılan elmi araşdırmada GMO məhsulların xərçəng yaratdığı təcrübədə sübut olundu. Alimlər bildirirlər ki, GMO bütün orqanizmi tədricən məhv edir.

Rusiyanın Timiryazev adına Bitkilərin Fiziologiyası İnstitutunun bir qrup alimi transgen məhsullara qarşı çıxıb. Alimlər bildiriblər ki, belə məhsullar sağlamlıq üçün ciddi təhlükələr yaradır. Almaniya mütəxəssisləri isə məhsul becərilməsi zamanı digər qiymətli bitki sortlarının məhv edilməsinə etiraz bildiriblər. Onların fikrincə, yaxın gələcəkdə itirilmiş təbii məhsulları bərpa etmək mümkün olmayacaq.

Bəzi beynəlxalq araşdırma mərkəzlərinin rəyinə görə, GMO texnologiyasının arxasında nəhəng qlobal qüvvə dayanır və bu prosesdə gizli məqsədlər güdülür. Böyük elmi mərkəzlərin "onların" nəzarətində olduğu qeyd edilir. Məhz buna görə, GMO-ya qarşı mübarizə effekt vermir.

## Azərbaycana GMO idxalı ÜTT-nin təzyiqi ilə reallaşıb

Bəzi ekspertlər ölkə bazarındakı ərzaq məhsullarının 80 faizdən çoxunun GMO olduğunu iddia edirlər. Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq-jurnalist Lalə Mehralının sözlərinə görə, dükan bazarda satılan kənd təsərrüfatı məhsullarının azı 70 faizi GMO məhsullardır: "Təxmini hesablamalara və müşahidələrimizə görə, tərəvəzlərin 80, meyvələrin 40, paxlalıların və buğdanın isə 60 faizdən çoxu GMO-dur. Emal qida məhsullarının isə 70 faizi geni dəyişilmiş məhsullardan hazırlanıb. Bu məhsulların bir hissəsi xaricdən idxal olunur bir hissəsi də ölkədə istehsal olunur. Geni dəyişdirilmiş məhsul növlərinin nəzarətsiz əkilməsi həm insanlara, həm də bütün təbiətə ağır zərbələr vurur".

Sosioloq deyir ki, əhalinin çoxu hələ də geni dəyişdirilmiş məhsulların nə demək olduğundan xəbərsizdir: "Fermerlər əkdikləri bitki növünün transgen ola biləcəyini düşünmürlər. Bir çoxu isə bilərəkdən belə məhsullar əkib becərir- çünki daha çox qazanc əldə edəcəklərini düşünürlər. Amma onu bilmirlər ki bu transgen bitkilər torpağı məhv edir, onu özünə öyrəşdirir, toxum vermir və əkinçilər hər il toxum satandan asılı vəziyyətə düşürlər. Alıcılar isə ağına bozuna baxmadan istənilən ucuz məhsulu almaqda maraqlıdırlar. Lakin bunu bilmirlər ki, GMO gecpartlayan bombadır.".

## "Niyə hansısa şübhəli xarici şirkətdən asılı vəziyyətə düşməliyik?"

İqtisadçı ekspert Vüqar Abbasov deyir ki, hazırda Azərbaycana idxal edilən və ölkədə istehsal edilən ərzaq məhsullarının çoxu genetik modifikasiyaya uğramış məhsullardır: "Ölkədə GMO məhsulların idxalı, istehsalı, emalı və satışı proseslərinə nəzarət yoxdur: "Üstəlik, əhali də bu problemlə bağlı çox məlumatlı deyil. Bizdə bir çoxunun da təqliddən xoşu gəlir, özləri bir yana uşaqları da dadandırıblar "McDonalds"kimi yerlərə, süni kimyəvi şirniyyatlara və içkilərə: "Fast-food şəbəkələrinin, xüsusilə də "McDonalds"ın menyusunun bəzəyi olan hamburger, hot-doq və digər yeməklərində istifadə edilən qidalar tamamilə transgen məhsullardır.

Məlumdur ki, broyler toyuqları hormonla böyüdülür, bitki yağları belə məhsullarla hazırlanır. "Cipsi"lərin hazırlanmasında yalnız GMO kartof növündən istifadə edilir. Şirniyyatlarda kimyəvi şəkərdən, GMO məhsullardan yararlanırlar. Bütün bunlar bioloji strukturun dağılmasına və insanın immunitet qabiliyyətinin məhv olmasına gətirib çıxarır".

Ekspertin fikrincə, idxal olunan məhsulların kimyəvi tərkibi körükdə ciddi yoxlanmalıdır: "GMO məhsullar ölkəyə buraxılmamalıdır. Eyni zamanda, ölkədə GMO toxum əkilməsinə ciddi qadağa qoyulmalıdır".

İqtisadçı deyir ki, bu gün GMO məhsullar ölkədə bir çox yerli bitkilərin nəslini kəsmək üzrədir: "GMO isə reproduksiya vermir. Üstəlik, torpağı özünə öyrəşdirir, sonra orda təbii bitki yetişmir. Məcbursan, ancaq GMO toxum almağa. Beləde, bütün aqrar sektor qalacaq "Monsanto" kimi şirkətlərin əlində. Bu isə ərzaq təhlükəsizliyi baxımından dəhşətli təhlükədir. Bir il toxum verməsələr bizim kənd təsərrüfatı ağır vəziyyətə düşəcək. Və ya istədikləri qiyməti qoyacaqlar. Bu proses bizə çox baha başa gələcək. Ölkənin böyük təbii potensialı var, milyard tonlarla təbii kübrə var, münbit torpaqlar, gözəl iqlim şəraiti, məhsuldar təbii toxumlar var. Bu halda biz niyə hansısa şübhəli xarici şirkətdən asılı vəziyyətə düşməliyik?"

## Azərbaycanda GMO-nu qadağan edən qanunlar var, lakin işləmir"

GMO məhsulların idxalının qarşısını almaq üçün bəzi qanunlarda müddəalar var: "Məsələn, Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Toxumçuluq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" qanunlarda göstərilib ki, həmin GMO orqanizmlərin, genetik maddələr ölkəyə gətirilməsi qadağandır. Lakin Azərbaycanda bunu reallaşdırmaq üçün müvafiq laboratoriya və mütəxəssislər yoxdur.

2007-ci ildə "Ekoloji təmiz kənd təsərrüfatı məhsulları" haqqında qanun qəbul olunsa da, qanunun sonuncu maddəsində göstərilən "GMO-nun üzərində məlum nişanlar olmalıdır ki, istehlakçılar bunu ayırd edə bilsinlər" qaydası hələ Azərbaycanda reallaşmayıb. Həmin qanunda GMO-lu məhsulların qadağan olunması haqqında maddə var. Laboratoriyalarda yoxlamadan sonra belə meyvələr Azərbaycana gətirilə bilməz. 2012-ci ilin 7 fevral tarixində ölkə prezidentinin genetik modifikasiya olunmuş məhsullarla bağlı ayrıca fərmanı oldu. Lakin fakt budur ki, bu qanunların tələblərinə əməl olunmur.

Qeyd etmək lazımdır ki, son 10 ildə Azərbaycanda əlil və ciddi xəstəliklərlə doğulan uşaqların sayı artır. Mütəxəssislər yeni doğulanların 30-40 faizinin genetik fəsadlara məruz qaldığını bildirirlər. Bundan başqa, təhlükəli xəstəliklərin, immun çatışmazlığı və qan azlığının da geniş yayılması etiraf olunub. Burda GMO-nun əsas rollardan birini oynamağına şübhə yoxdur.

Beləliklə, GMO məhsullar Azərbaycan əhalisi və ölkə iqtisadiyyatı üçün böyük təhlükədir. Gec də olsa bu vəziyyətdən çıxmağa çalışmalıyıq. Yerli toxumçuluğun inkişafı üçün prezidentin xüsusi fərman və tapşırıqları var, bu sahədə bəzi işlər də görülüb, yerli toxumçuluq təsərrüfatları yaradılıb. Amma bu işi daha böyük miqyasda aparmaq lazımdır. Biz yerli toxumlarımızı sıradan çıxarılmasına imkan verməməliyik. Hökumət bu barədə ciddi düşünməlidir.

**Elçin Bayramlı**

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

3 mart

QARABAĞ AZƏRBAYCANDIR!

# 19 cinayətin üstü "isti izlər"lə açılıb




**Daxili İşlər Nazirliyi (DİN) martın 1-də qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumatları açıqlayıb. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 19 cinayətin üstünü "isti izlər"lə açıblar.**

Əvvəlki dövrlərdən bağlı qalmış 15 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə 22 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 11 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında bir yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 1 nəfər ölüb, 1 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 6 fakt müəyyən olunub. Cinayət törətməkdə şübhəli bilinən 28 nəfər saxlanılıb.

# "Barselona" Qrizmanna qiymət qoydu: 60 milyon avro!



"Barselona" klubu cari mövsümün sonunda hücumçu Antuan Qrizmannla ayrılmağa hazırdır. Xarici KİV-lərin yazdığına görə, Kataloniya klubunun rəhbərliyi 29 yaşlı fransalı futbolçu üçün ən azı 60 milyon avro tələb edir. Fransada isə, hələ də belə bir qiymətə maraq göstərən heç bir klubun tapılmadığı qeyd olunur. Antuan Qrizmann kluba 2019-cu ilin yayında 120 milyon avro qarşılığında "Atletiko Madrid"dən keçib. Bu mövsüm futbolçu 35 matç 12 qol vurub, 10 məhsuldar ötürmə edib.

# İlk kosmik hotelin inşası 2025-ci ilə planlaşdırılır

"Orbital Assembly Corporation" (OAC) korporasiyası 2025-ci ildə aşağı Yer orbitində "Voyager" ilk kosmik hotelinin tikintisinə başlayacaq. Bu barədə "Daily Mail" yazıb. Hotel artıq 2027-ci ildə istismara verilə bilər. O, böyük halqa şəklində və Aydakı kimi olacaq süni cazibə yaratmaq üçün dönəcək. Hotel restoranlar, barlar, idman zalları, kinoteatrlar, spa salonlar ilə təchiz ediləcək və orada eyni zamanda 400 nəfər qalacaq.

Hələlik inşaatın dəyəri və hoteldə 1 gecəlik qalma xərci açıqlanmayıb. Lakin "Voyager"in fırlanan halqanın xaricinə bərkidilən kapsullarla təchiz ediləcəyi məlumdur. Kapsulaların bir hissəsi müxtəlif tədqiqatlar məqsədi üçün kosmik agentliklərə satılacaq.

Daxili halqa kosmik gəmilər, sərnişinlər və yüklərin boşaldılması üçün "park yeri" olacaq. Halqanın yaşayış sahəsində isə yalnız nömrələr deyil, həm də idman zalı, mətbəx, restoran, bar və ekipaj üçün yerlər olacaq. Kosmik istirahət həvəskarları özəl villa üçün 20x12 metrlik modullar ala biləcəklər, iş adamları isə orbitdə iş aparmaq üçün modullar əldə edə biləcəklər./report





# Sabunçuda oğurlanan avtomobil Bərdədə tapıldı

Paytaxtın Sabunçu Rayon Polis İdarəsinin 13-cü polis bölməsinə müraciət edən Naxçıvan şəhər sakini A.Ağalarov fevralın 24-dən 27-dək olan müddətdə Bakıxanov qəsəbəsindən "Ford" markalı avtomobilinin qaçırıldığını bildirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Cəlilov polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyənləşdirilərək Bərdə rayonu ərazisində avtomobillə birgə saxlanılıb. Faktlarla bağlı rayon polis idarəsində araşdırma aparılır.




# 48 yaşlı aktrisa cavan qalma sirrini açdı

**"Yasak Elma" serialında Ender obrazına həyat verən aktrisa Şevval Sam gözəllik sirrini açıqlayıb. Axşam.az-ın məlumatında deyilir ki, hər zaman fit bədən quruluşu və gözəlliyi ilə diqqət mərkəzində olan 48 yaşlı aktrisa botoks yerinə üz yoqası etdirdiyini açıqlayıb. Yaşlanma qorxusu olmayan Şevval üz yoqasını ilk dəfə 2014-cü ildə etdirib.**

# Neymar "Barselona"ya qarşı oynayacaq?



PSJ-nin zədəli futbolçusu Neymar Çempionlar Liqasının 1/8 finalında "Barselona" ilə keçiriləcək cavab oyununda da iştirak etməyəcək. "FrencFootballNews" xəbər verir ki, hələ də fərdi məşq edən braziliyalı hücumçunun zədəsi tam sağalmayıb.

Fevralın əvvəllərində Fransa kubokunun 1/32 finalında "Kan"la matçda ayaq əzələsindən zədə alan futbolçu artıq bir neçə oyunu, eləcə də "Barselona" ilə "Nou Kamp"da keçirilən ilk matçı (4:1) buraxıb. Qeyd edək ki, PSJ - "Barselona" görüşü martın 10-da keçiriləcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600